RƏSMİ DÖVLƏT QƏZETİ





# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 2 (8881) CÜMƏ, 7 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Şuşada İLHAM ƏLİYEV zirvəsi



## KEÇMİŞDƏN AYRILARKƏN

Hansısa mütəfəkkirin söylədiyi kəlam hələ də yadımdadır: Bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır!

Biz keçmiş məcburi köçkünlər isə yaxın keçmişimizdən, "məcburi köçkünlər" adından ağlaya-ağlaya ayrılırıq!

Amma qürurla ayrılırıq!

Qələbə, iftixar duyğusu ilə ayrılırıq!

Sevinərək ayrılırıq!

**Bizə bu xoşbəxt "ayrılığı" hünəriylə bəxş edən Müzəffər Ali Baş Komandanımıza böyük sevgi, minnətdarlıq hissilə ayrılırıq!**

*Bəli, cənab İlham Əliyev bizi bəxtəvər etdi, yurdumuza, elimizə qovuşdurdu!*

*Bizi bəxtəvər etdi, gözükölgəli millətdən qalib xalqa çevirdi!*

*Bizi bəxtəvər etdi, "məcburi köçkün" kimi üzücü, bəlkə də aşağılayıcı "tituldan" xilas etdi!*

Xalqımızı yüksəltdi, dövlətimizi göylərə qaldırdı!

"Məcburi köçkün" adını "qalib xalq", "qürurlu xalq" "qalib dövlətin vüqarlı vətəndaşı" adı ilə əvəz etdi!

**Daha biz doğma yurda, doğma məkana qayıda bilirik!**

Düzdür, qayıdarkən bizi viran qalmış kənd-kəsək, dağıdılmış şəhərlər, yerləyeksan edilmiş qəbiristanlıqlar qarşılayır.

**Bir də uzaq keçmişdə qalan xatirələr!**

**Acılı-şirinli xatirələr!**

**Kövrəldib-ağladan xatirələr!**

*Bax, bu məqamda ağlayırıq!*

*Acıyaraq ağlayırıq!*

**Vətənimizdə daş üstə daş qalmadığına, doğma yurdumuzun xarabazara çevrildiyinə görə ağlayırıq!**

**Nə vaxtsa murdar düşmənə yiyəsizlik səbəbindən məğlub olduğumuza görə ağlayırıq!**

Sonra köksdolusu nəfəs alırıq, sevinirik, gülürük...

*Axı, Müzəffər Ali Baş Komandanımız bizi təkcə doğma torpaqlara qaytarmayıb!*

*Həm də yağı düşməndən qisasımızı alıb!*

- Dağıdılmış 300-dən çox şəhərin və kəndin;
- Təhqir olunmuş müqəddəs dini məbədlərin;
- Altı üstünə çevrilmiş qəbiristanlıqların;
- Qırılmış meşələrin, kəsilmiş ağacların;
- Xocalı soyqırımının;
- I Qarabağ və Vətən müharibəsindəki şəhidlərimizin əvəzini ermənidən artıqlaması ilə çıxıb!

**Dəmir yumruğu ilə düşmənin başını əzib, belini qırıb!**

**Ermənistan ordusunu məhv edib!**

**Dünya erməniliyini biabırçı məğlubiyyətə uğradıb!**

Ermənistan bu məğlubiyyətdən çətin ki, özünə gələ!

Nə qədər kömək etsələr də, nə qədər silahlandırsalar da, faydası yoxdur!

**Həm də dəmir yumruğun gücünü gördü!**

**Azərbaycan-Türkiyə dostluğunun möhtəşəmliyinə şahid oldu!**

Azərbaycan tərəfinə atdığı "İsgəndər M" raketlərinin mənasız dəmir parçasına çevrildiyini izlədi!

*Ardı 3-cü səh.*

## *Müzəffər liderin bu şəhərə ötənilki 7 səfəri nəticəsində mədəniyyət paytaxtımızın siması sürətlə dəyişdi, tarixi əzəməti geri qaytarıldı*

"...Mən yeni ili "Şuşa ili" elan edirəm..."

Azərbaycan Prezidenti İlham Əliyev bu möhtəşəm xəbəri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı açıqladı. İlham Əliyev onu da qeyd etdi ki, bu il, 1752-ci ildə Pənahəli xan tərəfindən təməli qoyulan Şuşa şəhərinin 270 illik yubileyi böyük təntənə ilə qeyd ediləcək.

Bəli, ölkə Prezidenti tərəfindən verilən hər iki qərar həm Şuşanın şanlı tarixinin təntənəli bayramının qeyd edilməsi, həm də mədəniyyət beşiyimizin, Qarabağın baş tacının bərpasını, dirçəldilməsini sürətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda Şuşanın Azərbaycan xalqının, Azərbaycan Prezidentinin ürəyində hansı uca zirvədə dayandığını təntənəli şəkildə nümayiş etdirir...

Heç təsadüfi deyil ki, ötən il, işğaldan azad edilən torpaqlara 32 dəfə səfər edən İlham Əliyev, düz 7 dəfə yolunu Şuşa şəhərindən saldı. Qala şəhərimizdə böyük quruculuq işlərinə, ən genişmiqyaslı bərpa işlərinə start verdi, Şuşaya mütəmadi səfərlər edərək görülən işlərin gedişatı ilə şəxsən tanış oldu.

İlham Əliyevin hər gəlişinin Şuşanı necə möcüzəvi sürətlə dirçəltdiyinin, simasının dəyişdiyinin, ruhunun, tarixi əzəmətinin özünə qayıtdığının şahidi olduq...

*Ardı 4-cü səh.*

## Mənəvi dəyərlərin işığında



*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Günəşlidə "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.*

*Bax: səh. 2*

## Tariximizə və mədəniyyətimizə ali ehtiramın təcəssümü

### 2022-ci ilin "Şuşa ili" elan edilməsi Vətən müharibəsindəki Zəfərimizi və Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha dünyaya çatdıracaq




Prezident İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi. Bu qərar ilk növbədə Azərbaycan Prezidentinin xalqın milli-mədəni və mənəvi dəyərlərinə, keçmişinə ehtiramının təcəssümü oldu. Eyni zamanda 2022-ci ilin "Şuşa ili" elan edilməsi Vətən müharibəsindəki tarixi zəfərimizi və Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha dünyaya çatdıran vacib addımdır.

### İlham ƏLİYEV: "Şuşasız bizim işimiz yarımçıq olar"

Vətən müharibəsi günlərində Azərbaycan xalqının ən böyük gözləntilərindən biri Şuşa şəhərinin işğaldan azad olunması idi. Hər gün cəbhədən gələn xəbərlər arasında ordumuz tərəfindən kənd və şəhərlərimizin azad edilməsini eşitdikcə, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərinə qulaq asdıqca həm də Şuşa ilə bağlı xoş xəbər gözləyirdik. Çünki hələ oktyabrın 16-da Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində "Şuşasız bizim işimiz yarımçıq olar" demişdi. Ona görə ki, Şuşa Azərbaycan xalqının milli mədəniyyətinin əsas tarixi mərkəzlərindən biridir. Şuşa Azərbaycanın musiqi beşiyidir. Qarabağ deyəndə öncə Şuşa göz önünə gəlir. Bu şəhər Qarabağın Azərbaycan torpaqları olduğunu təsdiqləyən canlı tarixdir, Qarabağın vuran nəbzi, döyünən ürəyidir.

*Ardı 4-cü səh.*

## Azərbaycanı daha da gücləndirən il

2021-ci il artıq tarixə qovuşdu. Xalqımıza qazandırdığı nailiyyətlərlə milli dövlətçilik salnaməmizin qürur dolu daha bir səhifəsini yaşadıq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa və bütün dünyada yaşayan soydaşlarımıza müraciəti zamanı 2021-ci ilin dəqiq qiymətini verdi: "İl ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır".

### Dünya Azərbaycanın haqlı mövqeyini qəbul etdi

Dövlət rəhbərimiz beynəlxalq arenada ölkəmizin mövqelərinin möhkəmləndiyini xüsusi diqqətə çatdırdı. Azərbaycanın 2021-ci ildə bir neçə beynəlxalq təşkilat çərçivəsində aktiv fəaliyyəti, xüsusilə Qoşulmama Hərəkatının sədri statusunda qurumun bütün üzv ölkələrinin maraqlarını qətiyyətlə qoruması, beynəlxalq hüququn norma və prinsiplərinin müdafiəsi mövqeyində mətinliklə dayanması bunun sübutudur.

*Ardı 3-cü səh.*

## Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir

### Dünyanın heç yerində müharibədən sonra qısa vaxtda bu qədər quruculuq işləri görülməyib

Bəşər tarixində çox müharibələr olub. Bu savaşların aparıldığı ölkələrin döyüşlərdən sonra hələ uzun müddət problemlər yaşadığı tarixdən hamıya yaxşı məlumdur.

Hətta keçmiş SSRİ kimi nəhəng bir dövlət İkinci Dünya müharibəsindən sonrakı çətinliklərdən asanlıqla çıxmayıb. Müstəqil Azərbaycan dövləti isə 44 günlük Vətən müharibəsindən sonra bu sahədə də dünyaya nümunə göstərdi.

*Ardı 5-ci səh.*







## «Delta», «Alfa», «Beta», «Qamma», «Omikron»...

### Ötən il 3,7 milyon insanın həyatına son qoyan COVID-in yeni mutasiyaları artmaqda davam edir

Dünyada COVID-19-la bağlı epidemioloji vəziyyətin normallaşdırılması üçün koronavirusa qarşı vaksinləşdirmənin genişləndirilməsinə, insanların kütləvi toplaşmasının qarşısını almaqdan ötəri qapanmaların, məhdudiyyətlərin qoyulmasına və digər çoxsaylı tədbirlərin görülməsinə baxmayaraq, SARS-CoV-2 virusu 2021-ci ildə də yeni mutasiyaları ilə yayılmağa davam etdi və insanlarda pandemiyanın bitməsi ilə bağlı ümid yaratmadı.

*Ardı 7-ci səh.*

## Ermənistanda əhalinin maaşları mənimsənilir

### İqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi də minimuma enir

Ermənistanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir.

Hakimiyyət əleyhinə yönələn etirazların sayının artması və artıq Nikol Paşinyanın istefasının əsas tələb kimi qoyulması mövcud iqtidarın durumunu xeyli ağırlaşdırır. Əsasən qeyd olunur ki, müharibədəki məğlubiyyət fonunda Ermənistanda ötən il iqtisadi göstəricilər yaxşıya doğru dəyişməyib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb və iqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi də sıfıra yaxınlaşır. Qeyd olunur ki, hazırda ölkədə adambaşına düşən gəlir qabaqcıl ölkələrlə müqayisədə təxminən 16 dəfə, məhsuldarlıq isə 9 dəfə aşağıdır. Ermənistanın ərzaq təhlükəsizliyi ilə bağlı heç bir tədbir görülmür. Uzun illərdir ki, aqrar sektorda böhran hökm sürür, bu sahədə islahatlara başlamaq barədə təşəbbüs göstərilmir. Məhz bunun nəticəsidir ki, bu gün Ermənistanda kənd təsərrüfatı sahəsində azalma 25-30 faiz təşkil edir.

*Ardı 7-ci səh.*

# Mənəvi dəyərlərin işığında

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Günəşlidə “Xanım Fatimeyi Zəhra” məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində “Xanım Fatimeyi Zəhra” məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub.




İndi isə məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir.

Məscid kompleksini diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir.

Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir.

Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində “Xanım Fatimeyi Zəhra” məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edək. Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq, daha güclü Azərbaycan naminə fəaliyyətinizdə uğurlar, tükənməz enerji arzulayırıq.

Biz uzun illərdir ki, dost və qardaş Azərbaycan xalqının uğurlarını sevinclə izləyirik. Ölkənin ərazi bütövlüyünün bərpasında xidmətləriniz tarixi əhəmiyyət kəsb edir. Ədalətin bərpası, layiqli sülhün əldə olunması Sizin liderliyinizin, əzmkarlığınızın nəticəsi, bütün Azərbaycan xalqının tarixi xidmətidir.

Biz Ümummilli Lider Heydər Əliyevin ölkənin qurulmasında, onun müasir, güclü və layiqli dövlətə çevrilməsində tarixi rolunu xatırlayır və yüksək qiymətləndiririk. Siz, cənab Prezident, ölkənin ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməklə atanız Heydər Əliyevin arzusunu və həyatının amalını reallaşdırmağa nail oldunuz. Xalqınıza xidmətdə göstərdiyiniz cəsarət və qətiyyətə görə Sizə dərin ehtiramımızı bildiririk.

Azərbaycanın bundan sonra da dinc şəraitdə inkişaf etməsini arzulayırıq. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan daim yeni uğurlar qazanacaq və işıqlı ümidlər, geniş imkanlar ölkəsi kimi qalacaqdır.

Yubileyiniz mübarək, hörmətli Prezident!

Bir daha Sizə və ailənizə ən xoş arzularımızı bildiririk.

*Dərin hörmətlə,*

***David BEJUAŞVİLİ,***
***Gürcüstanın “Georgian Industrial Group” şirkətinin Direktorlar Şurasının sədri***

***Qela BEJUAŞVİLİ,***
***Direktorlar Şurasının üzvü***

Hörmətli cənab Prezident.

Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Zati-alinizə uzun ömür, cansağlığı və xoşbəxtlik arzulayıram.

Gürcü jurnalistlərlə və bloqqerlərlə birlikdə Azərbaycan Respublikasına səfər zamanı aldığım təəssüratları Sizinlə bölüşmək istəyirəm. Sizin gözəl şəhər və rayonlarınızı, tarixi abidələrinizi görmək, milli mətbəx nümunələrinizi dadmaq imkanı əldə etdim. Çox şadam ki, səfər zamanı Azərbaycanın paytaxtı Bakı şəhəri ilə yanaşı, Qarabağın tarixi yerləri ilə də tanış oldum. Qarabağda Azərbaycanın şanlı ordusunun qələbə, ləyaqət izlərinin şahidi oldum. İşğaldan azad edilmiş hər bir rayonda məhz Sizin kimi əvəzsiz liderin möhkəm iradəsi sayəsində ölkənizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində böyük bir missiyanın yerinə yetirildiyi hiss olunurdu. Bunun Sizin və milyonlarla Azərbaycan vətəndaşı üçün milli qürur və birlik hissi baxımından nə qədər vacib olduğunu tam dərk etdim. Göstərdiyiniz şücaətə və mübarizlik ruhuna görə Sizə və xalqınıza dərin ehtiramımı bildirirəm.

Cənab Prezident, Qələbə simvolunuz olan Şuşa şəhərinin böyük həvəslə çəkdiyim rəsmini 60 illik yubileyinizə hədiyyə etmək istərdim.

Sizi yubileyiniz münasibətilə bir daha təbrik edir, ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Ketevan QALUMAŞVİLİ,***
***Gürcüstanın ictimai xadimi, rəssam***

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri Qazaxıstandakı vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar

Yanvarın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Qazaxıstanda mövcud olan vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planı imzalanıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planı imzalanıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, planda nəzərdə tutulan tədbirlərin icra vaxtı, yeri və məsul şəxslər müəyyən edilib. Həmçinin nazirliyin tabeliyindəki birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində il ərzində hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.

## Azərbaycanın hərbi qulluqçuları beynəlxalq təlimlərdə iştirak edəcəklər

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2022-ci tədris ilində hərbi qulluqçularımızın 30-dan çox beynəlxalq təlim və yarışlarda iştirakı planlaşdırılır. “Eternity - 2022”, “EFES - 2022”, “Sarsılmaz Qardaşlıq - 2022”, “Qış təlimi - 2022”, “Beynəlxalq Ordu Oyunları - 2022” və digər beynəlxalq təlim və yarışlar cəlb ediləcək hərbçilərimizin qarşılıqlı təcrübə mübadiləsi nəticəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir göstərəcək.

Bundan başqa, cari il ərzində hərbi qulluqçularımızın müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakı da nəzərdə tutulub.

## Müharibə əlillərini təmsil edən qeyri-hökumət təşkilatları ilə yeni sosial dəstək tədbirləri müzakirə olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində müharibə əlilləri və iştirakçılarını təmsil edən qeyri-hökumət təşkilatları ilə görüş keçirilib. Görüşdə “Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri” İctimai Birliyinin sədri Mehdi Mehdiyev, “Qarabağ qaziləri” İctimai Birliyinin sədri Asəf Əliyev, təşkilatın nümayəndəsi və qazilər.az saytının rəhbəri Rey Kərimoğlu, “Azərbaycan Vətən Müharibəsi Veteranları” İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, nazir müavinləri Anar Əliyev, Anar Kərimov və aidiyyəti struktur bölmələrin nümayəndələri iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizin ərazi bütövlüyünün müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş qəhrəmanlarımızın ailələrinin, müharibə əlillərinin və iştirakçılarının sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan işlər diqqətə çatdırılıb. Bildirilib ki, ötən ay Prezident İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlarla ölkəmizdə 2,1 milyon insana dəstək olan yeni sosial islahat paketi reallaşdırılıb.

Həmin islahat paketinin tərkib hissəsi kimi, dövlət başçısının tapşırıqları ilə yeni mühüm sosial müdafiə proqramları - 1991-1997-ci illərdə aldıqları xəsarət nəticəsində Qarabağ müharibəsi əlili statusu almış şəxslərə birdəfəlik ödəmənin verilməsi, Vətən müharibəsinin iştirakçılarına “Müharibə veteranı” adı verildikdən sonra Prezidentin aylıq təqaüdünün təyin edilməsi nəzərdə tutulub.

Hazırda aidiyyəti qurumlarla birgə həmin sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün aparılan işlər barədə məlumat verilib.

QHT rəhbərləri müharibə əlilləri və iştirakçıları ilə bağlı yeni sosial dəstək tədbirlərinin ictimaiyyət tərəfindən yüksək dəyərləndirildiyini vurğulayıblar. Birdəfəlik ödəmənin verilməsi üçün təklif olunan mexanizmlər, sənədləşdirmə işlərində şəffaflığın təmin edilməsi və digər məsələlər QHT rəhbərləri ilə müzakirə edilib.

## Əlahiddə Ümumqoşun Orduda taktiki-xüsusi təlim keçirilib

Əlahiddə Ümumqoşun Orduda taktiki-xüsusi təlim keçirilib. Təlimdə təxribata hazırlaşan şərti düşmənin hava hücumundan müdafiə sistemi sıradan çıxarılıb.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təlimin ssenarisinə əsasən xüsusi təyinatlı qruplara strateji obyektlərimizi və hava məkanımızı hədəf alan şərti düşmənin hava hücumundan müdafiə sisteminin məhv edilməsi tapşırığı verilib.

Tapşırığı almış xüsusi təyinatlı qruplar terrorçuların məskən saldığı yaşayış məntəqəsinə həmlə ediblər.

Terror fəaliyyətlərinin gücləndirilməsi üçün köməyə gələn şərti düşmənin






şəxsi heyətlə dolu hərbi texnikaları pusquya salınaraq sıradan çıxarılıb.

Real döyüş şəraitinə maksimum yaxınlaşdırılmış şərtlərlə keçirilən təlimdə yaxın məsafəli döyüş elementləri yerinə yetirilib.

Şərti düşmənin hava hücumundan müdafiə sisteminin idarəetmə məntəqəsini və döyüş heyətlərini zərərsizləşdirən xüsusi təyinatlılarımız terror qruplaşmasının zenit-raket kompleksini partlayış üsulu ilə məhv ediblər.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimin sonunda şəxsi heyətin terrorla mübarizə vərdişləri yüksək qiymətləndirilib, təlimdə iştirak edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim olunub.



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan




## Keçmişdən ayrılarkən

*Əvvəli 1-ci səh.*

*Fərarilər yığnağına çevrilən erməni ordusu heç zaman PUA-larla başına yağdırılan odu-alovu, ölümü unutmaz!*

*Nə qədər onu saxlamağa çalışsalar da, daha Azərbaycan torpaqlarında qalmaz!*

Yedirtsələr də, içməli su daşısalar da, yardım paylasalar da, ev tiksələr də, lap müharibə vaxtı səngərdə olduğu kimi, zəncirlə bağlasalar da!

**Çünki indi əməllərinin bəhrəsini dərirlər!**

❖ ❖ ❖

*Bülbülü salırlar qəfəsə: "Ay Vətən" - deyib fəryad qoparır!*

*Açıb buraxırlar...*

*Qaratikan koluna qonaraq "Can Vətən" - söyləyib mahnı oxuyur!*

Bəli, vətənin xaraba qalmışı da gözəldir!

**Dağılmış evin torpaq altındakı bünövrəsi də insana əzizdir, doğmadır!**

**Xatirələr göz yaşları ilə yoğrulmuş olsa da, itkilərimizi yada salsalar da, bizə doğmadır, məhrəmdir!**

*Çox şükür!*

*Nə yaxşı ki İlham Əliyev kimi Müzəffər Ali Baş Komandanımız var!*

*Nə yaxşı ki İlham Əliyev kimi müdrik, uzaqgörən Prezidentimiz var!*

Yoxsa biz bu qədər murdar, bu qədər alçaq xislətli, bu qədər müdafiəçisi olan və bu qədər həyasızlıqla bizə şər atan, yalanı özünə peşə seçən düşmənə necə qalib gələrdik?!

**Bu möcüzəvi qələbəni yalnız İlham Əliyev dühası yarada bilərdi!**

**Bu sonsuz sevinci və qüruru bizə yalnız İlham Əliyev bəxş edə bilərdi!**

**Bu qədər "dostu", "havadarı", "qardaş və bacısı" olan faşist xislətli düşməni yalnız İlham Əliyev məğlub və məhv edə bilərdi!**

*Etdi də!*

*Həm də nəinki hərb meydanında, həm də diplomatiya sahəsində, informasiya müharibəsi cəbhəsində biabırçı məğlubiyyətə uğratdı!*

❖ ❖ ❖

Düşmən ağıllanıbmı?

Əgər ağlı olsaydı, özgə torpaqlarını bu qədər işğalda saxlamaz, qurulu şəhər və kəndləri dağıdıb yer üzündən silmək niyyətinə düşməzdi!

Əgər ağlı olsaydı, monoetnik respublikaya, forpost dövlətə çevrilməz, cavanlarını qırğına verməzdi!

Əgər ağlı olsaydı, Avropada və Amerikada rahat həyat sürən diasporunun fitvasına getməz, onun parasına susayaraq özgələrin əlində alətə çevrilməz, xülyalarla yaşamazdı.

Əgər ağlı olsaydı, Türkiyə kimi nəhəng dövlətə qarşı ərazi iddiaları irəli sürməz, illər və əsrlərboyu olmayan "erməni soyqırımı"nı qəbul etdirmək üçün min bir hiyləyə əl atmazdı!

Əgər ağlı olsaydı, faşistlərə qulbeçəlik edənlərə heykəllər qoymaz, faşizmi özünə ideologiya seçməzdi!

Nəticəsi nədir; qazancı nə oldu?

*Məhv edilmiş ordu, cəsədləri bu gün də özgə ərazilərindən toplanan vətəndaşlar, əhalisi dilənçi günündə yaşayan, sürətlə qaçıb xaricdə normal yaşayış axtaran ölkə, müstəqilliyi və perspektivi olmayan dövlət...*

**Əgər bu gün də sülhə gəlmirsə, revanşizmdən danışırsa, deməli, "dəmir yumruq" bir də başına çırpılacaq!**

**Ta ağıllanana qədər!**

❖ ❖ ❖

*Bu gün keçmişə baxarkən ağlasaq da, ağrısaq da, gələcəyə baxanda gülürük, qürurlanırıq!*

*Keçmişdə qalan ağır günlərimiz, ehtiyaclar məngənəsində sıxılan həyatımız, ümidsiz anlarımızdır!*

Keçmişdə qalan çadır şəhərcikləri, yardım növbələri, heç bir şəraiti olmayan ictimai binalardakı darısqal mənzillər, qışda soyuq, yayda isti vaqon evlərdir!

Doğrudur, Prezidentimizin köməyi ilə həmin çadır şəhərciklərini ləğv etdik, yeni tikilən evlərə, müasir tipli qəsəbələrdəki təzə mənzillərə köçdük!

**Amma ağır günlərimizi, şəhidlərimizi və itkilərimizi də yaddan çıxara bilmərik!**

❖ ❖ ❖

Daha bizi heç kəs keçmişə qaytara bilməz!

Nə Ermənistan, nə də onun havadarları!

Sonuncu dəfə Azərbaycan Prezidenti cənab İlham Əliyev 23 sentyabr 2021-ci ildə BMT-nin ali tribunasından istifadə edərək Ermənistanı revanşizmdən çəkinməyə çağırdı və bir daha xəbərdarlıq etdi: *"Ermənistanda hökumət tərəfindən təşviq edilən Azərbaycanofobiya artmaqdadır. Etnik nifrət və düşmənçilik üzərində qurulmuş erməni cəmiyyətində aşılanan irqçi ideologiya Azərbaycanın Ermənistan tərəfindən keçmiş işğal olunmuş ərazilərində etnik təmizləmənin və misilsiz vandalizmin kökündə durur. Ermənistanda rejim dəyişikliyinə baxmayaraq, ölkədə faşist ideologiyası hökm sürməkdə davam edir".*

*"Biz yenidən öz suverenliyimizə, ərazi bütövlüyümüzə və xalqımızın təhlükəsizliyinə hər hansı bir təhdid görsək, legitim özünümüdafiə hüququmuzdan heç bir tərəddüd etmədən istifadə edəcəyik".*

❖ ❖ ❖

Biz daim irəli baxırıq, irəli gedirik, qurub-yaradırıq, doğma Qarabağımızı cənnətə çeviririk!

Buna həm iqtisadi gücümüz, həm siyasi iradəmiz, həm xalqımızın möhkəm birliyi, həm də ordumuzun qüdrəti imkan verir!

Azərbaycanı heç kəs tutduğu yoldan, getdiyi istiqamətdən, quruculuq əzmindən döndərə bilməz!

Bugünkü Azərbaycan qalib Azərbaycandır!

Bugünkü Azərbaycan özünə və dostlarına güvənən, milli maraqlarını hər şeydən üstün tutan, gələcəyə ünvanlanmış aydın baxışları və dəqiq hədəfləri olan Azərbaycandır!

Bəli, bəşəriyyət öz keçmişindən gülə-gülə ayrılır.

Biz də məcburi köçkün həyatından, sıxıntılı günlərimizdən ayrıldığımıza görə həm də gülürük!

**Biz yeni reallıqlar yaratmış xalqıq, dövlətik!**

**Bunu hamı bilməli və Azərbaycanın yeni reallıqları ilə hesablaşmalıdır!**

44 günlük Zəfərin birinci ildönümünü böyük qürurla, böyük təntənə ilə qeyd etdik.

Hər gününü sonsuz ümidlə, həyəcanla, sevinc və göz yaşları ilə yaşadığımız möhtəşəm 44 günün!

İndi qalib xalq kimi açıq ürəklə, açıq alınla yaşayır, daim qürur və fərəh hissilə keçiririk!

*Artıq dünya bizi qüdrətli xalq kimi tanıyır!!*

*Bizim Müzəffər Ali Baş Komandanımız var!*

*Bizim bütövləşmiş Azərbaycanımız var!*

Tezliklə Prezidentimiz Qarabağımızı cənnətə çevirəcəkdir!

Dostlar baxıb sevinəcək, düşmənlər kor olacaqlar!

**Biz daha ağlamırıq!**

**Biz indi ucadan və ürəkdən gülürük!**

**Bəxtiyar SADIQOV**

---

## Azərbaycanı daha da gücləndirən il

*Əvvəli 1-ci səh.*

Qoşulmama Hərəkatına üzv ölkələrin Azərbaycanın quruma sədrliyinin daha bir il uzadılmasına yekdilliklə səs verməsi də ölkəmizin bu təşkilata uğurlu rəhbərliyinə, prinsipiallığına, göstərilmiş etimadı doğrultmasına verilən ən yüksək qiymətin ifadəsidir. Onu da xatırladaq ki, Qoşulmama Hərəkatı hazırda BMT-dən sonra dünyanın ikinci böyük təsisatıdır. Bu qurumda 120 üzv dövlət təmsil olunur. Azərbaycanın bu quruma sədrlik müddətinin daha bir il müddətinə uzadılması 2021-ci ilin ölkəmizin ən böyük tarixi nailiyyətlərindən sayıla bilər. Daha bir nəticə isə Türk Şurasına sədrlik müddətini uğurla başa çatdırandan, bu müddətdə qarşıya qoyulmuş məqsədlərə nail olandan sonra Azərbaycanın Şuraya sədrlik səlahiyyətini qardaş Türkiyəyə ötürməsi oldu.

Azərbaycan ötən il ərzində İslam Əməkdaşlıq Təşkilatı, NATO və Avropa İttifaqı kimi nüfuzlu qurumlarla da əməkdaşlığını uğurla davam etdirdi. Ölkəmizin haqlı mövqeyini hər zaman dəstəkləyən İslam Əməkdaşlıq Təşkilatı Vətən müharibəsindəki qələbəmizdən sonra bu qələbənin beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmasında da daim Azərbaycanın yanında oldu.

2021-ci ilin dekabrında dövlət rəhbərimiz Brüsselə uğurlu səfərlər etdi. Öz zirvə görüşlərində mütəmadi olaraq Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul etmiş NATO bu dəfə də ölkəmizə dəstəyini bildirdi. Həmçinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşünün yekununda qəbul edilmiş sənəddə ölkələrin ərazi bütövlüyü, suverenliyi bir daha dəstəkləndi. Bütün bunlar İkinci Qarabağ müharibəsinin nəticələrinin, Azərbaycanın tarixi zəferinin bütün dünyada qəbul olunması deməkdir. Ali Baş Komandan İlham Əliyev döyüş meydanındakı Zəfərimizi diplomatiya meydanındakı ardıcıl qələbələrlə daha da möhkəmləndirir. Artıq hər kəs Azərbaycanın haqlı mövqeyini etiraf etmək məcburiyyətində qalır. Uzun illər ərzində ölkəmizə qarşı ikili standartlar mövqeyindən çıxış edənlər, işğal faktını görməzdən gələnlər, bu mövqeyi 44 günlük Vətən müharibəsi gedişində də davamlı olaraq sərgiləyənlər artıq haqq savaşımızın nəticələri ilə barışırlar. "Hesab edirəm ki, müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var", - dedi Azərbaycan Prezidenti: "Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi. Ona görə də müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək hesab edirəm ki, siyasi baxımdan çox önəmli hadisə kimi sayıla bilər".

### Milli maraqlarımıza cavab verən regional əməkdaşlıq

2021-ci ilin nəticələri həm də İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni tarixi reallığın bir ili kimi də böyük maraq doğurur. Azərbaycan bu reallığı əməkdaşlıq üçün yeni imkanlar kimi dəyərləndirərək qonşu dövlətlərlə əlaqələrini daha da inkişaf etdirir. Ötən il bu istiqamətdə bir sıra mühüm addımlar atıldı. Bunlardan ən mühümü Türkiyə ilə imzalanmış Şuşa Bəyannaməsi oldu. Bu sənəd Türkiyə-Azərbaycan müttəfiqliyini rəsmiləşdirdi. Xüsusilə onun Vətən müharibəsindəki Zəfərimizin simvollarından sayılan Şuşa şəhərində imzalanması bu addıma daha bir rəmzi məna qazandırdı.

Azərbaycan ötən il Türkiyə ilə yanaşı, region dövlətlərindən olan Rusiya ilə də əlaqələrini uğurla inkişaf etdirdi. Eyni zamanda digər qonşularımız İran və Gürcüstanla da daimi təmaslar, fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri inkişaf etdirildi. "Artıq regionda çoxtərəfli əməkdaşlıq platforması formalaşır və əlbəttə ki, bu, bizim maraqlarımıza cavab verir", - deyən Azərbaycan Prezidenti dünya azərbaycanlılarına müraciətində qonşularımızla bağlı çox maraqlı bir məqama da toxundu: "Qonşular haqqında danışanda, təbii olaraq, Ermənistanı mən heç vaxt bu kateqoriyadan olan ölkələrə daxil etmirdim. Bu gün də hələ ki daxil etmirəm. Amma ümid edirəm ki, nə vaxtsa Ermənistanla da bizim qonşuluq əlaqələrimiz qurulacaq. Hər halda İkinci Qarabağ müharibəsinin nəticələrini qəbul edərək Ermənistan da regional çərçivədə öz rolunu artıra bilər. Hər halda noyabr və dekabr aylarında Soçi və Brüssel şəhərlərində keçirilmiş görüşlər ümidvericidir və ümid edirəm ki, bu görüşlərdə əldə edilmiş razılaşmalar 2022-ci ildə real həyatda öz əksini tapacaqdır".

Cənubi Qafqaz regionunun gələcək təhlükəsizliyi, inkişafı, xoşbəxtliyi üçün yeni imkanlar, fürsətlər ili sayıla biləcək 2022-ci ilin başlanğıcında bu, Ermənistana verilən şans kimi dəyərləndirilməlidir. Bu ölkənin gələcək taleyi ona yaradılmış seçim imkanına münasibətindən, əldə edilmiş razılaşmalara hansı şəkildə sadiqlik göstərməsindən asılı olacaqdır.

### Müzəffər xalq, qalib ölkə

Azərbaycan xalqı, təbii ki, işğal dövründə törədilmiş vəhşilikləri heç zaman unutmayacaq, xalqımıza tarixi Qələbəni bəxş etmiş şəhidlərimizin xatirəsini daim yaşadacaq. Dövlət rəhbərimiz bildirdi: "Azərbaycan xalqı artıq dünyada müzəffər xalq kimi, Azərbaycan dövləti isə müzəffər ölkə kimi tanınır. Onu da bildirməliyəm ki, bu il Azərbaycana olan ənənəvi dəstək və hörmət daha da artdı və bunun başlıca səbəbi İkinci Qarabağ müharibəsindəki Zəfərimiz, müharibə dövründə bütün müharibə qaydalarına riayət etməyimiz və müharibədən sonra özümüzü ləyaqətlə aparmağımız idi".

Qalibiyyət ruhu ilə Azərbaycan hərbi qüdrətini yüksəltməkdədir. 2021-ci ildə bu istiqamətdə də uğurlu nəticələr əldə olunub. Yeni silahlar, texnikalar alınıb. Bu prosesin yenə davam etdirilməsi nəzərdə tutulur. Eyni zamanda hərbi birləşmələrimizin hazırlıq işinə də böyük əhəmiyyət verilir. Ali Baş Komandan xalqa müraciətində onu da qeyd etdi ki, Müdafiə Nazirliyinin xüsusi təyinatlıları artıq bütün dünyada tanınır, onların qəhrəmanlığı, fədakarlığı, peşəkarlığı dastana çevrilib. Ali Baş Komandan İlham Əliyev bu il artıq Azərbaycanda yeni hərbi birləşmənin - Komando Qüvvələrinin yaradıldığını da diqqətə çatdırdı: "Bu Komando Qüvvələri istənilən hərbi vəzifəni icra etməyə hazırdırlar, onların sayı durmadan artır və artacaq. Beləliklə, yeni çevik, peşəkar və çox böyük imkanlara malik olan silahlı birləşmənin yaradılması onu deməyə əsas verir ki, biz hər an öz torpaqlarımızı, öz sərhədlərimizi qorumağa hazır olmalıyıq. 2021-ci ildə Ermənistan-Azərbaycan sərhədində baş vermiş bəzi insidentlər onu göstərdi ki, Azərbaycan üstünlüyü tam öz əllərində saxlayır".

### "Şuşa ili"

2021-ci il, təbii ki, həm də azad yurdlarımızda quruculuq prosesinin başlanğıcı ili kimi də yadda qaldı. Ötən il Qarabağda, Şərqi Zəngəzurda geniş quruculuq-bərpa işlərinə start verildi. Azərbaycan Prezidenti müraciətində də vurğuladı ki, dünya tarixində müharibələrdən sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb: "Bu işlər haqqında Azərbaycan vətəndaşları müntəzəm olaraq məlumatlandırılır. Əgər mən bu haqda danışmağa başlasam, yəqin ki, bir neçə saat vaxt lazım olacaq, hər şey göz qabağındadır. Bizim əsas vəzifəmiz keçmiş köçkünləri tezliklə dədə-baba torpaqlarına qaytarmaqdır və biz buna nail olacağıq". Bu il dövlət rəhbərimizin Azərbaycanın bölgələrinə 47 səfərinin 32-sinin məhz işğaldan azad edilmiş ərazilərə olması və hazırda ən geniş bərpa işlərinin aparıldığı Şuşa şəhərinə Prezident İlham Əliyevin il ərzində 7 dəfə getməsi quruculuq-abadlıq işlərinə dövlət başçımızın birbaşa nəzarətindən irəli gəlir.

Azərbaycan Prezidentinin dünya azərbaycanlılarına müraciəti zamanı 2022-ci ili "Şuşa ili" elan etməsi də bu əzmin, azad yurdlarımızın dirçəlişinə verdiyi yüksək önəmin ifadəsidir. Bu ilin "Şuşa ili" elan edilməsinin daha bir rəmzi məqamı isə 2022-ci ildə Şuşa şəhərinin təməlinin qoyulmasından 270 il keçməsi ilə bağlıdır. Şuşa şəhərinin qurucusu Pənahəli xan bu gözəl məkanın təməl daşını 1752-ci ildə qoyub. Bu il Azərbaycanın mədəniyyət paytaxtının 270 illik yubileyi böyük təntənə ilə qeyd olunacaq. 2022-ci ilin "Şuşa ili" elan olunması bir tərəfdən, ulu yurdun bərpası tədbirlərinin sürətləndirilməsinə xidmət edir, digər tərəfdən də, tarixən azərbaycanlıların tarixi şəhəri olan Şuşanın dünyada tanıdılması üçün daha bir imkandır.

### Azərbaycan postböhran dövrünə qədəm qoyub

Qarabağ və Şərqi Zəngəzurun dirçəlişi ilə yanaşı, Azərbaycanın digər bölgələrində də regional inkişaf proqramlarının icrası uğurla davam etdirilir. Geniş infrastruktur layihələrinin icrası, əhalinin rifah halının daha da yüksəlməsi üçün əlavə imkanlar yaradılır. Azərbaycan iqtisadi inkişafı istiqamətində atılmış məqsədyönlü addımlar sayəsində, demək olar ki, artıq postböhran dövrünə qədəm qoyub. Ölkə iqtisadiyyatı bu ilin 11 ayında 5,3 faiz, qeyri-neft iqtisadiyyatı isə 6,4 faiz artıb. Sənaye istehsalı 5,5 faiz, qeyri-neft sektorunda sənaye 20,7 faiz yüksəlib. Valyuta ehtiyatlarımız 2,2 milyard dollar artıb. Ticarət əlaqələrimizin müsbət saldosu 9,4 milyard dollardır. Xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir və bu il ərzində həm mütləq rəqəmlərdə, həm ümumi daxili məhsula nisbətdə xarici dövlət borcu azalıb.

Azərbaycan işğaldan azad edilmiş torpaqlarımızda quruculuq-bərpa işlərini də, regional inkişaf layihələrini də kənardan heç bir yardım, kredit almadan məhz öz iqtisadi gücü hesabına yerinə yetirir. Bu iqtisadi güc, inkişaf göstəriciləri uzunmüddətli, düzgün strategiyanın həyata keçirilməsinin nəticəsidir. Eyni zamanda iqtisadi sahədə aparılan islahatlar, şəffaflıq, korrupsiya və rüşvətxorluqla mübarizə də öz nəticələrini verməkdədir. Prezident İlham Əliyev müraciətində maraqlı bir fakta da diqqət yönəltdi: "Təkcə vergi orqanları sayəsində xəzinəyə proqnozdan əlavə 1,4 milyard manat pul daxil edilib və bu puldan istifadə edərək biz geniş sosial paket tədbirlərini həyata keçiririk. Yanvarın 1-dən maaşlar, pensiyalar, təqaüdlər əhəmiyyətli dərəcədə artırılacaq. İki milyon yüz min insanı əhatə edən bu sosial paketin ümumi həcmi 1,5 milyard manatdır. Baxın, vergi orqanları xəzinəyə ancaq proqnozdan əlavə 1,4 milyard manat pul cəlb ediblər, onun hamısı və artıqlaması ilə sosial məsələlərin həllinə yönəldilib. Mən əvvəllər də demişəm ki, əlavə vəsait toplandıqca, ilk növbədə, biz bu vəsaiti sosial layihələrə yönəldəcəyik. Eyni zamanda azad edilmiş torpaqlarda görülən işlər də sosialyönümlü işlərdir. Çünki o işlərin mütləq əksəriyyəti sosial xarakter daşıyır, keçmiş məcburi köçkünlərin tezliklə o ərazilərə qaytarılmasına hesablanıbdır". Bütün bu işlərin uğurla davam etdirilməsi üçün Azərbaycan Prezidenti iqtisadi nailiyyətlərimizin daha da artırılmasını əsas vəzifələrdən biri kimi qarşıya qoyub.

Pandemiyanın bütün dünya üçün hələ də öz aktuallığını itirmədiyi zamanda əhalinin sağlamlığı da, təbii ki, dövlətimiz üçün əsas prioritetlərdəndir. Azərbaycan 2021-ci ildə COVID-lə mübarizədə yaxşı nəticələr əldə edib. Pandemiyanı tam nəzarət altında saxlamağı bacarıb. Ölkəmiz hazırda bu sahədə durumun qəbuledilən səviyyədə olmasını təmin edən nadir ölkələrdəndir. Aparılan genişmiqyaslı peyvəndlənmə siyasəti nəticəsində əhalinin təxminən 50 faizi artıq 2 doza peyvənd alıb. 18 yaşdan yuxarı olan əhaliyə gəldikdə isə, bu rəqəm 62 faizə çatır. Ümumilikdə 11 milyondan çox doza vaksin vurulub. Prezident İlham Əliyev bu qlobal bəla ilə yeni ildə də ciddi mübarizə aparılacağını qeyd etdi.

### 2022-ci il də uğurlu olacaq

Dövlət rəhbərimiz Azərbaycanın son illərdəki tarixi nailiyyətlərinə, 2021-ci ildəki nəticələrinə əsaslanaraq əminliyini bildirdi ki, 2022-ci il də xalqımız üçün uğurlu il olacaq: "Çünki ölkədə mövcud olan birlik, həmrəylik və gözəl ab-hava bu reallığı bizə təmin edəcək. Mən isə Prezident kimi, Ali Baş Komandan kimi hər zaman Azərbaycanın maraqlarının keşiyində duracağam, ölkəmizin hərtərəfli inkişafı, hərbi gücünün artırılması, vətəndaşların daha yaxşı yaşaması üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Bu, milli vəhdətimizdən, Azərbaycanın sülh, inkişaf, bəşəriyyətin xoşbəxtliyi məramından irəli gələn əminlikdir. Belə bir ümid işığında xalqımız Prezident İlham Əliyevin liderliyi ilə 2022-ci ili də uğur tarixinə çevirəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# 2022-ci il "Şuşa ili"dir

# Tariximizə və mədəniyyətimizə ali ehtiramın təcəssümü

## 2022-ci ilin "Şuşa ili" elan edilməsi Vətən müharibəsindəki Zəfərimizi və Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bir daha dünyaya çatdıracaq

Əvvəli 1-ci səh.

Bu baxımdan Azərbaycanın hərbi Zəfəri, torpaqlarımızın azad olunması ilə nəticələnən Vətən müharibəsinin ən mühüm hadisələrindən biri Şuşa şəhərinin işğaldan azad edilməsi oldu. Məhz Şuşanın azad edilməsindən sonra Ermənistanın baş naziri Azərbaycan Prezidenti İlham Əliyevin şərtləri əsasında kapitulyasiya aktına imza atmağa məcbur oldu. Şuşanın azad edildiyi gün Prezident İlham Əliyevin sərəncamı ilə tariximizə Zəfər günü kimi həkk olundu.

Şuşa xalqımızın elə bir möhtəşəm mədəni abidəsidir ki, düşmən onu 28 ildə erməniləşdirə bilmədi. Onun hər küçəsi bir tarix, hər daşı mənəvi xəzinədir, xalqımızın milli-mədəni sərvətidir. Bu şəhər 28 il yarım davam edən işğal dövründə erməniləri qəbul etmədi. Şuşa onlar üçün əvvəldən yad idi, işğal dövründə də yad olaraq qaldı. Prezident İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib, nə qədər çalışsa da, bu əsrarəngiz Azərbaycan şəhərini erməniləşdirə bilmədi. Çünki hər küçəsində, hər bir abidəsində yalnız xalqımızın mədəniyyətinin, milli dəyərlərinin, ulu tarixinin silinməz izləri var.

Prezident İlham Əliyevin rəhbərliyi və nəzarəti ilə Şuşa yenidən qurulur, şəhərin tarixi-mədəni memarlıq abidələri yüksək səviyyədə bərpa edilir. Bərpa işlərinə Heydər Əliyev Fondu və onun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük töhfələri xüsusi qeyd edilməlidir.

### 270 yaşlı şəhər

Bu il Şuşanın təməlinin qoyulmasının 270 yaşı tamam olur. Qarabağ xanı Pənahəli xan tərəfindən əsası qoyulan şəhərdə təhlükəsiz yaşamaq üçün zəruri işlər başa çatdırıldıqdan sonra Qarabağ xanlığının paytaxtı buraya köçürülüb. Yeni qala ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa adlandırılıb.

Şuşanın şəhər kimi formalaşması bir neçə mərhələdən keçib. Birinci mərhələ qeyri-sabit şəraitdə 1763-cü ilə qədər davam edib. Bu dövrdə şəhərin Şərq hissəsində doqquz məhəllə salınıb. İbrahimxəlil xanın hakimiyyəti illərinə təsadüf edən ikinci mərhələdə Şuşada aparılan tikinti işləri daha keyfiyyətli və möhtəşəm olub. On doqquzuncu əsri əhatə edən üçüncü mərhələdə şəhərin dağlıq - qərb hissəsində yeni məhəllələr salınıb və əslində, bununla Şuşanın bir şəhər kimi formalaşması dövrü başa çatıb.

Çarizmin müstəmləkə siyasəti yürütməsinə baxmayaraq, XIX əsrin ortalarından Azərbaycanda yeni bir mədəni həyat başlayıb. Həmin dövrdən Qarabağ, xüsusilə Şuşa xalqımızın əsas ədəbi və mədəni mərkəzi kimi şöhrət qazanıb. Bu xanzadələr şəhəri təkcə təbii gözəlliyi ilə deyil, mədəni mühiti, yüksək təhsili ilə də hər zaman fərqlənib. Yetirdiyi dahiləri, ziyalıları, şairləri, yazıçıları, musiqiçiləri, bəstəkarları isə saymaqla qurtarmaq olmur...

Sovet hakimiyyəti illərində Şuşa siyasi-inzibati mərkəz statusundan məhrum edilib, şəhər ögey münasibətlə üzləşib. Yalnız Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra Şuşanın inkişafı istiqamətində vacib addımlar atılıb. Bütün bunlar barədə Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Sərəncamında deyilir: "Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır. Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır".

1992-ci ildə xəyanətin qurbanı olan Şuşanın 2020-ci ildə işğaldan azad edilməsi Prezident İlham Əliyevin dövlətimiz və xalqımız qarşısında böyük tarixi xidmətidir. 2021-ci ildə şəhərin bərpası istiqamətində böyük işlər görülüb. Dövlət başçısının Şuşaya 7 dəfə səfər etməsi də şəhərin bərpasına olan xüsusi diqqətdən xəbər verir. Ötən il ərzində görülən işlərin miqyası isə əhatəli və möhtəşəmdir. Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini və yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci ilin "Şuşa ili" elan edilməsi şəhərin bərpasını daha da sürətləndirəcək, bu istiqamətdə görülən işlərə böyük töhfələr verəcək.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Şuşada İLHAM ƏLİYEV zirvəsi

## *Müzəffər liderin bu şəhərə ötənilki 7 səfəri nəticəsində mədəniyyət paytaxtımızın siması sürətlə dəyişdi, tarixi əzəməti geri qaytarıldı*




Əvvəli 1-ci səh.

### Şuşanın dirçəlişinin təməlini Ulu Öndər qoymuşdu

Əslində, Şuşanın mədəni dirçəlişinin təməli hələ illər öncə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Ümummilli Liderin 1982-ci ildə Şuşaya 2 dəfə səfər edərək Vaqifin məqbərəsinin, Poeziya Evinin açılışında və orada keçirilən "Vaqif poeziya günləri"ndə iştirak etməsi xalqımızın, şuşalıların yaddaşına ən xoş xatirələr kimi həkk olunub. Foto və videoların da yaddaşına köçən həmin tarixi anlarda İlham Əliyev də Ulu Öndərlə bərabər Şuşada idi.

Düz 39 ildən sonra, 2021-ci ilin 15 yanvarında Vaqifin ermənilər tərəfindən dağıdılmış məqbərəsi önündə çıxış edən Prezident İlham Əliyev həmin günləri belə xatırlamışdı: "...Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü Ulu Öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı".

İlham Əliyev işğala məruz qalmış torpaqlarımızın erməni tapdağı altında qalması ilə heç zaman barışmırdı və ötən bu illər ərzində daim yurdlarımızın azadlığı üçün çalışırdı. Şuşanın işğaldan qurtarılması isə, həm də İlham Əliyevin ata nəsihətinə əməl etməsi kimi böyük xoşbəxtliyə nail olması demək idi.

Müzəffər Ali Baş Komandan 2020-ci ilin 8 noyabrında Şəhidlər xiyabanından Şuşanın azadlığını xalqımıza müjdələyəndə onu da qürurla söyləmişdi ki, ata vəsiyyətini yerinə yetirdiyi üçün xoşbəxt adamdır.

Hələ Şuşanın azadlığından əvvəl, İkinci Qarabağ müharibəsinin gedişi ərəfəsində də Prezident İlham Əliyev müsahibəsi zamanı Şuşanın azadlığının xalqımız üçün nə qədər əhəmiyyətli olmasını dilə gətirmiş, qətiyyətlə vurğulamışdı: "Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

### Şuşaya aparan "Zəfər" yolu

Şuşanın qəhrəmanlıqla düşmən tapdağından azad edilməsindən sonra isə növbə bu tarixi şəhərin əzəmətini bərpa etmək idi.

Prezident İlham Əliyev 2021-ci ilin 14 yanvarında, Şuşaya "Zəfər" yolu ilə səfər edərək, bu tarixi missiyanın uğurlu təməlini qoydu. İlham Əliyev bu səfəri zamanı illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşdurdu, onların da ruhlarını şad etdi. Dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya - öz əzəli vətənlərinə qaytarılması qələbəmizin daha bir sarsılmaz rəmzinə çevrildi.

İki aydan sonra, martın 16-da dövlət başçısı yenidən Şuşaya üz tutdu, Vaqifin məqbərəsində tezliklə bərpa işlərinin başlayacağının, məscidlərin bərpası ilə bağlı artıq müvafiq göstərişlər verildiyinin, otuz il ərzində ermənilərin qurutduğu bütün bulaqlarımızın bərpa ediləcəyinin və bir çox möhtəşəm planların xoş xəbərini verdi.

Daha sonra Ali Baş Komandan xalqımızı ölkəmizin tarixində əlamətdar günlərdən olan və uzun fasilədən sonra Şuşada, Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalından salamladı. Mayın 12-də keçirilən festivalda Prezident qürurla qeyd etdi ki, biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Bu festival isə Azərbaycanda yaşayan xalqların nümayəndələrini əhatə edir: "Bu tövsiyəni festivalın təşkilatçısı olan Heydər Əliyev Fonduna mən vermişdim, çünki Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edən İlham Əliyev "Xarıbülbül" festivalındakı çıxışında onu da söylədi ki, "ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".

### Şuşa Bəyannaməsi: Azərbaycan - Türkiyə müttəfiqliyinin rəsmi təminatı

Müstəqil Azərbaycan dövlətinin 15 İyun - Qurtuluş Günündə Prezident İlham Əliyev növbəti dəfə Şuşaya səfər etdi. Amma bu dəfə İlham Əliyev həm də qardaş ölkə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı Qarabağ torpağında salamladı. Həmin görüşdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qədim Azərbaycan şəhəri, türk mədəniyyətinin beşiyi olan Şuşada əsl tarixi salnamə yazdılar. Azərbaycan - Türkiyə əlaqələrini ən yüksək zirvəyə çatdırdılar, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar.

Tarixə əsaslanan bu bəyannamənin əhəmiyyəti haqqında danışan İlham Əliyev söylədi ki, bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb: "XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir". XX əsrin sonlarında Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk".

Öz növbəsində Rəcəb Tayyib Ərdoğan bildirdi ki, Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik: "Türkiyə ilə Azərbaycan arasındakı bu Bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük".

### Tarix təkrarlanır

Ötən il İlham Əliyevin Şuşaya möhtəşəm və unudulmaz səfərlərindən biri də avqustun 29-da oldu. Prezident "Qarabağ" hotelinin, dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonrakı açılışında, Molla Pənah Vaqifin büstünün, Bülbülün Ev-Muzeyinin bərpadan sonra, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışlarında iştirak etdi.

2021-ci ilin 30 avqustunda 1982-ci ildə Ulu Öndər tərəfindən açılışı edilən və 2021-ci ildə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Vaqifin möhtəşəm məqbərəsinin önündə "Vaqif Poeziya Günləri"nə start verildi.

Poeziya günlərinin açılışında iştirak edən Prezident İlham Əliyev məlumat verdi ki, şəhərdə artıq çox böyük işlər görülüb və Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görürlər, Şuşanın bərpası ilə bağlı qısa müddət ərzində böyük işlər görülüb. İlk növbədə "Zəfər" yolu çəkilib. Magistral yol da çəkilir, Şuşanın elektrik təsərrüfatı bərpa edilib, yarımstansiya tikilib. Şuşaya suyun verilməsi bərpa edilib və indi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələrinin bərpasına start verilib. Vaqifin məqbərəsi artıq bərpa edilib. Ermənilər tərəfindən dağıdılan Vaqifin büstü bərpa edilib və ikinci açılışı həyata keçirilib. Üç məsciddə təmir-bərpa işləri gedir, Yuxarı Gövhər ağa məscidinin təmiri bitmək üzrədir. Saatlı və Aşağı Gövhər ağa məscidlərinin təmiri ilə bağlı göstərişlər verilib. Bu məscidlərin təmirini Heydər Əliyev Fondu öz üzərinə götürüb. Natəvan bulağı bərpa edilib...

### Tarixlə müasirliyin birləşdiyi məkan

Həmin tarixdə Prezidentin Şuşa səfəri çərçivəsində əlamətdar hadisələrdən biri də şəhərin müfəssəl hazırlanmış baş planı əsasında tikiləcək yeni yaşayış kompleksinin təməl daşının qoyulması oldu. Dövlət başçısına təqdim edilən Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb. Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək. İlham Əliyev söylədi ki, bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar. Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilirlər: "Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

### Zəfər bayramının Şuşa təntənəsi

Bu qədim Azərbaycan şəhərinin azadlığının ilk ad günündə - 8 noyabrda da Müzəffər Ali Baş Komandan Şuşada idi. 2021-ci ilin 7 noyabrında Şuşaya səfərə gələn İlham Əliyev əvvəlcə Füzuli rayonunda "Zəfər" yolunun açılışında iştirak etdi. Daha sonra Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Şəhər Xəstəxanasının təməllərini qoydu.

Dövlət başçısı Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış oldu.

8 Noyabr - Zəfər Günündə isə xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cıdır düzündə ağac əkdilər.

Ali Baş Komandan İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxış etdi, Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini və Azərbaycan xalqını Zəfər günü münasibətilə təbrik etdi. Dövlət başçısı söylədi ki, bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir.

8 noyabr 2021-ci ildə Şuşada qeyd olunan təntənəli Zəfər günü bütün beynəlxalq aləmə, doğma diyarlarımıza göz dikən işğalçılara bir daha mesaj verdi ki, Vətənimizə qarşı istənilən təhdid və hücumların qarşısını ala biləcək qüdrətli Ordumuz, bu Orduya rəhbərlik edən qətiyyətli, əzmkar Baş Sərkərdəmiz var.

### "Şuşa hər birimizi özünə çəkir"

2021-ci ilin 24 dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 60 illik yubileyini qalib sərkərdə, Müzəffər Ali Baş Komandan kimi Zəfərimizin qürur zirvəsi olan Şuşada qeyd etdi, aldığı yubiley təbriklərinə görə Cıdır düzündən təşəkkürünü çatdırdı.

Dövlət başçısı Azərbaycan xalqına verdiyi müqəddəs vədin gerçəkləşməsinin qürurunu, üzərinə düşən ən böyük missiyanı ləyaqətlə yerinə yetirməyin fəxarətini, ata vəsiyyətinə əməl etməyin xoşbəxtlik hissini həmin gün bir daha Qarabağda keçirirdi.

Müzəffər lider fəxrlə diqqətə çatdırdı ki, Şuşaya bu il yeddinci səfəridir: "Şuşa hər birimizi özünə çəkir. Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

Bəli, hələ bundan 10 il əvvəl, 2011-ci ilin 24 dekabrında 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün İlham Əliyev sərkərdə qətiyyəti ilə dediyi kimi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, elə həmin gün vəd verdiyi kimi işğaldan azad edilən yurdlarımızda böyük quruculuq işlərinə başladı.

İlk növbədə isə Şuşada böyük quruculuq işlərinə start verildi və işğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri də məhz Qarabağımızın baş tacında aparılmağa başlandı.

*Prezident İlham Əliyevin birbaşa nəzarəti altında gündən-günə Şuşa dirçəlir, inkişaf edir, tarixi əzəmətini özünə qaytarır. Bütün bunlar isə onu göstərir ki, tezliklə mədəniyyət paytaxtımızda həyat yenidən qaynayacaq. Və qarşıdakı bütün illərimiz də şuşalı bəxtəvərlər kimi keçəcək...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan

XXI əsrin müharibəsi kimi dünya hərb salnamələrinə qızıl hərflərlə yazılan şanlı Azərbaycan Ordusunun 44 günlük müharibəsi həm də xalqımızın haqq mübarizəsinə qalxaraq Zəfər çaldığı Vətən müharibəsi kimi tarix səhifələrinə əbədi həkk olundu. 30 ildən çox idi ki, davam edən münaqişəyə cəmi 44 gün ərzində son qoyan bu savaş həm xalqımızın böyük tarixinin, həm də gələcək rifahının təməlinin qoyulduğu müqəddəs hadisə oldu. Milli kimliyimizin, varlığımızın, ən əsası isə həqiqətin aynası olan bu qürurlu günlərimiz parlaq gələcəyimizin də üzərində bərqərar olan zəngin tarixi səltənətdir.

Buna görə də Vətən müharibəsinin hər gününü dərindən araşdırmaq, həmin günlər ərəfəsində döyüş meydanında, arxa cəbhədə, beynəlxalq arenada yaşananları ən incə detallarına qədər bilmək və onları olduğu kimi yaddaşımıza, tarixə yazmaq vacibdir. Bu məsuliyyət isə qismətinə qələbəmizə şahidlik etmək yazılmış bugünkü nəslin, Vətən müharibəsinin müasirlərinin üzərinə düşür.




# Sərkərdə, savaş və Zəfər:

## 44 günün təntənəli salnaməsi

“Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” və “Zəfər memuarları - Döyüşçülər Sərkərdə və müharibə haqqında” kitabları savaş tarixinin ilk ümumiləşdirilmiş nümunəsi kimi əvəzsiz mənbədir

Xalqımızın həyatında taleyüklü rol oynayan bu şanlı prosesi təfsilatı ilə izləmək, onun gedişi, nəticələri, yaratdığı dəyişikliklər haqqında aydın məlumata malik olmaq baxımından Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanan iki qiymətli nəşr, Vətən müharibəsində qazanılan qürurlu Qələbəyə və onun tarixinə həsr edilən “Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” və “Zəfər memuarları - Döyüşçülər Sərkərdə və müharibə haqqında” kitabları müharibə tarixinin ilk ümumiləşdirilmiş nümunəsi kimi əvəzsiz mənbələr, həm də “Şuşa ili”nə qiymətli töhfələrdir.

### Qələbənin kökündə şəxsiyyət amili, Prezident İlham Əliyev fenomeni dayanır

“Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabı 27 sentyabr 2020-ci ildə başlamış və müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun cəmi 44 gün ərzində işğal olunmuş torpaqlarımızı azad etməsi ilə başa çatan Vətən müharibəsinə həsr olunub. Tarixçi alimlərin, hərbçilərin, Milli Məclisin deputatlarının, tanınmış jurnalistlərin, məmurların Vətən müharibəsi ilə bağlı yazılarının toplandığı qiymətli nəşr İkinci Qarabağ müharibəsinin bütün mərhələlərini əhatə edir. Kitabda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki müstəsna fəaliyyəti və ordu quruculuğunda yeni mərhələni başlatması, Azərbaycan Prezidenti İlham Əliyevin mükəmməl qələbə strategiyasının əsas istiqamətləri, Vətən müharibəsi dövründə Ali Baş Komandanın uğurlu diplomatiya siyasəti və informasiya cəbhəsindəki mübarizəsi geniş tədqiq edilərək işıqlandırılıb. Azərbaycanın tarixi zəfərinin geopolitik nəticələri və Prezident İlham Əliyevin postmüharibə dövründə Qarabağın sosial-iqtisadi inkişaf strategiyası nəşrdə öz əksini tapıb.

İkiəsrlik münaqişəni, xüsusilə də onun son 32 ilini ətraflı şərh edərək qalibiyyətə aparan yola işıq tutan “Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabını oxuduqda bir daha əmin oluruq ki, bu Qələbənin kökündə şəxsiyyət amili, Prezident İlham Əliyev fenomeni dayanır.

### Ulu Öndər böhran içində olan Azərbaycanda qısa müddətdə sabitlik yaratdı

“Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması və onun fəsadları barədə geniş məlumat verilir. Bildirilir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları sovet dövründə daha da genişlənib. 1923-cü ildə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması ilə bu bölgə separatizm ocağına çevrilib. Nəşrdə belə bir fakt da qeyd edilib ki, problemin tarixi kökləri və mahiyyəti barədə danışan Ulu Öndər Heydər Əliyev söyləmişdir ki, ötən əsrin 30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərində də erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək üçün ciddi cəhdlər göstərmişdilər: “Dəfələrlə qızğın fəaliyyətə başlamışdılar, ancaq onların qarşısı alınmışdı. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam”.

Elə buna görə idi ki, erməni millətçilərinin birbaşa səyləri sayəsində 1987-ci ilin sonunda Heydər Əliyev SOV.İKP Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edildi.

Sözügedən kitabda tarixi faktlara istinadən əsaslandırılır ki, bundan sonra işğalçı Ermənistan Azərbaycanın ərazilərinə açıq-aşkar iddia edərək bir-birinin ardınca torpaqlarımızı qəsb etməyə başladı. Torpaqlarımızın işğalının ən başlıca səbəbi isə müstəqilliyimizin ilk illərində Azərbaycanı idarə edən iqtidarların başında qətiyyətli, səriştəli liderin olmaması idi.

Azərbaycan xalqı ölkənin çətin və məhvolma təhlükəsi ilə üz-üzə olduğu 1993-cü ilin yayında Ulu Öndər Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Ulu Öndər hakimiyyətə gəldiyi ilk gündən çox mühüm hərbi-siyasi xarakterli tədbirlər həyata keçirdi. Nəticədə istər iqtisadi, istərsə də siyasi baxımdan böhran içərisində olan Azərbaycanda qısa müddətdə sabitlik yarandı. Heydər Əliyev Ermənistanın təcavüzünə qarşı, eləcə də Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və möhkəmləndirmək üçün mütərəqqi xarici siyasət strategiyasına, bütün sferalarda, o cümlədən hərbi sahədə quruculuq işlərinə start verdi. Zamanında Azərbaycanda uğurlu təməli qoyulan çox əhəmiyyətli işlər isə sonradan Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək böyük Qələbənin rəhninə çevrildi.

### İlham Əliyev strategiyası: güclü dövlət, zəngin iqtisadiyyat, siyasi iradə və ordu quruculuğu

Vətən müharibəsinə həsr olunan adıçəkilən kitabda Azərbaycan Prezidenti İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 18 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərini keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirməsi də əksini tapıb. Bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən hadisələrə də təsir göstərmək imkanı qazanıb.

Prezident İlham Əliyev hər zaman mühüm beynəlxalq tədbirlərin tribunalarından Ermənistanın işğalçı siyasətini ifşa edib təcavüzkarın faşist ideologiyası yürütdüyünü və terrorizmi dövlət səviyyəsində dəstəklədiyini dünyaya bəyan edib. Xüsusilə son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digər beynəlxalq təşkilatların sənədləri müvafiq hüquqi baza yaradıb.

Ümumiyyətlə, 2003-cü ildən keçən müddət ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşayıb, problemlərin böyük hissəsi öz həllini tapıb, istənilən istiqamət üzrə konkret proqramlar icra edilib.

Azərbaycanın Vətən müharibəsində qələbəsini şərtləndirən əsas amillər güclü dövlət, dinamik iqtisadi inkişaf, siyasi iradə, diplomatiyada uğurlar və ordu quruculuğunda aparılan genişmiqyaslı islahatlar olub. Bu sahələrin vəhdətini və eyni vaxtda uğurlu olmasını təmin edən də məhz Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin yorulmaz fəaliyyəti olub.

### “Şuşanın azad edilməsi ilə nəticələnmiş uğurlu hərbi kampaniyanın əsl müəllifi də məhz İlham Əliyevdir”

44 günlük Vətən müharibəsində hərbi əməliyyatlar Prezident İlham Əliyevin vahid komandanlığı altında həyata keçirilib. Bununla bağlı “Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabında yer alan məlumatda göstərilir ki, hər gün təqdim edilən hərbi məruzələr Ali Baş Komandan tərəfindən dinlənilərək təhlil edilib və növbəti gün üçün yeni döyüş tapşırıqları verilib. Vətən müharibəsinin zəfər zirvəsi olan Şuşa qələbəsi də Ali Baş Komandanın rəhbərliyi ilə hazırlanan və onun təsdiq etdiyi əməliyyat planına əsasən əldə olunub. Ali Baş Komandan əməliyyatın ilkin icrası və gedişi prosesində komandanlığı şəxsən özü həyata keçirib. Döyüş günlərində İlham Əliyev tərəfindən göstərilən qətiyyətli və prinsipial sərkərdəlik qabiliyyəti nəticədə Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur edib.

Şərhçilərin kitabda yer alan təhlillərində də bildirilir ki, bu razılaşmanın tarixi əhəmiyyəti ilə yanaşı, mühüm strateji önəmi də oldu. Ağdam, Kəlbəcər və Laçın rayonları İlham Əliyevin müdrik siyasəti nəticəsində bir güllə belə atılmadan, itki verilmədən Azərbaycana qaytarıldı.

“Dəmir yumruq” əməliyyatı nəticəsində arxasında dünyanın böyük gücləri dayanan, müxtəlif lobbi təşkilatları tərəfindən maliyyələşdirilən, sıralarına peşəkar və yüksək hazırlıqlı xarici muzdlu döyüşçüləri cəlb edən işğalçı bir ordu əzildi, darmadağın edildi.

“Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabında “Böyük qələbədə şəxsiyyət faktoru” adlı ön söz əvəzi məqaləsində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov haqlı olaraq bildirir: “17 il idi ki, İlham Əliyev bütün Azərbaycan xalqının həsrətlə gözlədiyi bu şanlı qələbəyə doğru yorulmadan irəliləyib. Qazanılan böyük Qələbə İlham Əliyev fenomenini yeni bir rakursdan işıqlandırdı. Bu, təcrübəli beynəlxalq siyasət qrosmeysteri və istedadlı hərbi strateq keyfiyyətlərini özündə birləşdirmiş iradəli və qətiyyətli lider fenomenidir. 2020-ci ilin payızında həyata keçirilmiş və arzularımızın tacı olan qədim mədəniyyət mərkəzimiz Şuşanın azad edilməsi ilə nəticələnmiş uğurlu hərbi kampaniyanın əsl müəllifi də məhz İlham Əliyevdir.

Azərbaycan xalqının çoxəsrlik mübarizə və müharibələr tarixindəki bu böyük Qələbənin arxasında şəxsiyyət faktoru, görkəmli dövlət başçısı və qüdrətli Sərkərdə - İlham Heydər oğlu Əliyev fenomeni dayanır”.

### Bu Zəfər Azərbaycan tarixində yeni mərhələyə yol açdı

Kitabda göstərilir ki, müharibənin gedişində Azərbaycan ictimaiyyəti, o cümlədən beynəlxalq aləm Prezident İlham Əliyevi müzəffər hərbi sərkərdə olmaqla yanaşı, informasiya savaşının bacarıqlı Komandanı kimi də gördü. Həmin dövrdə dünyanın aparıcı KİV-nə verdiyi müsahibələrdə İlham Əliyev Azərbaycanın haqq işini, bu müharibədə ədalətli tərəf olduğunu beynəlxalq ictimaiyyətə böyük peşəkarlıqla çatdırdı. Eyni zamanda erməni faşizminin acı fəsadlarını bir daha dünyaya nümayiş etdirdi.

Böyük Zəfərin iştirakçılarının və şahidi olmuş insanların oxucularla bölüşdükləri fikirlərin, rəy və təhlillərin yer aldığı “Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” kitabında vurğulanır ki, İlham Əliyevin bu Zəfəri Azərbaycan tarixində yeni və uğurlu bir mərhələyə yol açdı. Prezident İlham Əliyevin yaratdığı yeni hərbi, siyasi, iqtisadi reallıqlar Azərbaycanı təkcə regionda deyil, Avrasiya məkanında böyük nüfuz sahibinə çevirərək qlobal miqyasda lider mövqeyinə yüksəltdi.

Ən başlıcası isə erməni vandalları tərəfindən dağıdılıb yerləyeksan edilən Qarabağ və Şərqi Zəngəzur artıq quruculuq mərkəzinə çevrilib, o yerlərə yeni həyat qayıdır.

“Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” adlı kitabdan gətirdiyimiz qısa nümunələrdən də göründüyü kimi, nəşrdə tariximizin ən faciəli dövrlərindən başlayaraq ən qürurlu mərhələsinə qədər baş verənlər bütün detalları ilə ətraflı işıqlandırılıb.

### Zəfər memuarları

“Zəfər memuarları - Döyüşçülər Sərkərdə və müharibə haqqında” kitabı isə Vətən müharibəsində iştirak edən 27 döyüşçünün Sərkərdə, savaş və Zəfər barədə memuarlarının toplusudur. Məqsədi hərbi əməliyyatların hazırlanması, həyata keçirilməsi, hərbçilərin yaşadıqları hisslər, onların həyəcan və sevincləri, düşüncələri haqqında məlumatı geniş ictimaiyyətə çatdırmaq olan kitabda, yüksəkrütbəli zabitlərin, əsgərlərin, qazilərin, Vətən Müharibəsi Qəhrəmanlarının, ali orden və medallarla təltif olunan döyüşçülərin bir-birindən maraqlı və qəhrəmanlıqlarla dolu döyüş xatirələri əksini tapıb.

Ayrılıqda bu igidlərin hər birinin öz döyüş yolu, fərqli hərbi uğurları, rütbələri, medalları olsa da, kitabda yer alan memuarlarını oxuduqda həm də onları birləşdirən yeganə bir amalın olduğunu yəqin edirsən: bu qəhrəman döyüşçülərin hər biri Ali Baş Komandan İlham Əliyevin “dəmir yumruq” əməliyyatının cəsur fədailəri kimi böyük zəfərə imza atmaq üçün rəşadətlə döyüşüblər, çarpışıblar. Torpaqlarımızın bütövlüyü, yüz minlərlə məcburi köçkünümüzün öz əzəli dədə-baba yurdlarına qayıtması üçün çıxdıqları bu müqəddəs yolda qarşılaşdıqları çətinliklərə baxmayaraq, düşmənə aman verməyiblər.

### Ali Baş Komandanın intellektinin və möhtəşəm hərbi strategiyasının nəticəsi

Memuarların müəllifləri qazanılan möhtəşəm qələbənin baş qəhrəmanının cənab İlham Əliyev olduğunu, məhz onun qüdrətli sərkərdəlik məharəti sayəsində cəmi 44 gün ərzində torpaqlarımızı işğalçı düşmləndən azad etdiklərini real faktlarla əsaslandırırlar. Bu döyüşçülərin hər biri Azərbaycanın tarixi Zəfərinin Ali Baş Komandanın intellektinin və möhtəşəm hərbi strategiyasının nəticəsi olduğunu vurğulayırlar.

“Zəfər memuarları - Döyüşçülər Sərkərdə və müharibə haqqında” adlı kitab Vətən müharibəsində Azərbaycan oğullarının düşmənə qarşı göstərdikləri qəhrəmanlıq mübarizəsini, 44 gün davam edən hərbi əməliyyatların ilk saatından son dəqiqəsinədək qələbə əzmi ilə irəliləyən igid əsgər və zabitlərimizin hünərlərini bir daha göz önünə gətirir. Suqovuşandan Şuşayadək qanlarıyla, canlarıyla Zəfər yolu açan bu igidlər düşməndən qarış-qarış təmizlədikləri Vətən torpaqlarından fəxrlə söz açır, mühüm strateji yüksəkliklər və yaşayış məntəqələri uğrunda gedən qanlı döyüşləri, savaşda qarşılaşdıqları qürurlu, həmçinin kədərli hadisələri diqqətə çəkirlər.

Zəfərin qürur zirvəsi sayılan Şuşanın azadlığa qovuşması üçün çətinliklərə necə sinə gərmələri, sıldırım qayaları bir həmlədə aşaraq düşməni yalın əllə məhv etmələri, onları doğma şəhərimizdən qovmaları barədə real faktlarla danışdıqları döyüş səhnələri qürurverici tariximizin əsl qəhrəmanlıq səhifəsi kimi kitabda parlaq əksini tapıb.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman döyüşçülərinin təmsilçiləri, Vətən müharibəsinin igidlərindən olan 27 döyüşçünün ordu quruculuğu, savaşdan önceki dövr, müharibə və onun nəticələri barədə qələmə aldıqları xatirələri həm də Zəfər yolumuza işıq salan qiymətli mənbədir.

*Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsi hələ uzun illər araşdırma mövzusu olacaq, gələcəkdə də bu barədə cildlərlə kitablar yazılacaq. Lakin uzun illər sonra belə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanan, türk, rus və ingilis dillərinə tərcüməsi nəzərdə tutulan “Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru” və “Zəfər memuarları - Döyüşçülər Sərkərdə və müharibə haqqında” kitablarına istinad olunacaq və ən dəqiq mənbələrdən biri kimi oxucuların dərin rəğbətini qazanacaq.*

**Yasəmən MUSAYEVA, “Azərbaycan”**

# Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir

## Dünyanın heç yerində müharibədən sonra qısa vaxtda bu qədər quruculuq işləri görülməyib



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə doğma torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycanın müharibədən sonra cəmi bir il ərzində misilsiz quruculuq-bərpa işlərinə başlaması dünyanı heyrətə gətirdi. Həm də bu işləri dövlətimiz heç kimdən kömək istəmədən həyata keçirir. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi kimi: “Həm Azərbaycanda, həm dünyada hər kəs yaxşı bilir ki, Azərbaycan təkbaşına, heç kimdən bir manat, bir dollar yardım almadan bu işləri görür. Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparıldı. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük”.

Məqsəd keçmiş məcburi köçkünləri tezliklə öz dədə-baba torpaqlarına qaytarmaqdır və bu vəzifənin yerinə yetirilməsi üçün işlər genişmiqyaslı olmaqla yanaşı, həm də çoxşaxəlidir.

İşğaldan azad olunmuş ərazilərimizə işıq, yol, su xətləri çəkilir. Burada 2021-ci il ərzində 13 enerji obyekti tikilib, yaxud yenidən qurulub. “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su-elektrik stansiyaları, Laçındakı “Güləbird” SES yenidən qurularaq istismara verilib. “Kəlbəcər-1” kiçik su - elektrik stansiyasında işlər tamamlanıb.

İşğaldan azad edilmiş ərazilərdə ümumilikdə 110/35/10 kV-luq 9 rəqəmsal yarımstansiyası tikilib. Mayda “Şuşa”, iyunda “Füzuli” və “Şükürbəyli”, avqustda “Kəlbəcər”, oktyabrda “Cəbrayıl”, “Zəngilan” və “Qubadlı” yarımstansiyaları işə salınıb. Bu obyektlərin açılışında Prezident İlham Əliyevin iştirak etməsi onların önəmini bir daha nəzərə çatdırır. Hazırda Ağdam rayonunda iki yerdə inşa edilən “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının, o cümlədən “Qarabağ” Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi yekunlaşıb.

Qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulub və tam rəqəmsallaşdırılıb. Bu ərazilərdə eləcə də 365 kilometr məsafədə ikidövrəli olmaqla 10 istiqamətdə yüksəkgərginlikli 110 kilovoltluq elektrik verilişi xətti çəkilib.

Qarabağda və Şərqi Zəngəzurda yol tikintisi də böyük əhəmiyyət kəsb edir. Bərpa-quruculuq işlərinə yeni yolların çəkilişindən başlanması təsadüfi deyil. Bunlardan biri artıq istifadəyə verilmiş “Zəfər yolu”dur. Bu, qalib Azərbaycan Ordusunun Şuşanı mənfur düşməndən azad edərkən istifadə etdiyi cığır - yolun əbədiləşdirilməsi məqsədilə tikilən yoldur. Bu yol öz qanları ilə şanlı tarix yazan oğulların qəhrəmanlığının şahidi olduğundan həm də rəmzi məna, mənəvi önəm daşıyır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu yolu “Zəfər” yolu adlandırıb. Yolun tikintisi dövlət başçısının daimi nəzarəti altında icra olunub və qısa vaxtda başa çatdırılıb.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101,5 kilometrlik “Zəfər” yolu Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçir, onlarca yaşayış məntəqəsini əhatə edir.

Hazırda Əhmədbəyli-Füzuli-Şuşa, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, Qubadlı-Eyvazlı, Şükürbəyli-Cəbrayıl-Hadrut, Füzuli-Hadrut, Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yollarının inşası davam edir.

Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda bir-birinə sıx calanan geniş yol-nəqliyyat şəbəkəsi yaradılır. O cümlədən Horadiz-Ağbənd, Bərdə-Ağdam dəmir yolu xətti yenidən qurulur. Bu yolların bəziləri Zəngəzur dəhlizinin tərkib hissəsidir və onların çəkilməsi nəticəsində Azərbaycanın əsas hissəsinin Naxçıvan MR və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq.

Müharibədən sonra, yəni çox qısa vaxt ərzində sözügedən ərazilərdə neçə-neçə infrastruktur layihəsinin təməli qoyulub. Onlardan bir qisminin icrası artıq yekunlaşıb. Təkcə Füzuli Beynəlxaq Hava Limanının tez bir zamanda tikilməsini və istifadəyə verilməsini qeyd etmək kifayətdir. Sevindiricidir ki, bu, Qarabağın və Şərqi Zəngəzurun yeganə aeroportu olmayacaq. Gələcəkdə qonaqlar Zəngilan və Laçına da təyyarə ilə gələ biləcəklər.

Qarabağda və Şərqi Zəngəzurda “yaşıl enerji” layihələri həyata keçiriləcək. “Ağıllı kənd”, “ağıllı kənd təsərrüfatı” layihələrinə isə artıq start verilib.

Biz doğma torpaqlarımızı yağı tapdağından azad etdiyimiz kimi, orada cənnət yaratmağı da bacaracağıq. Azərbaycanın müdrik Prezidentinin və qəhrəman xalqının məramı, məqsədi budur!

**Flora SADIQLI, “Azərbaycan”**






## Naxçıvan MR-də ötən il zəmilərdən 103 min tondan çox məhsul yığılıb

Ötən il muxtar respublikada bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunub, digər sahələr kimi, kənd təsərrüfatının da inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi diqqətdə saxlanılıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, 2021-ci ilin məhsulu üçün muxtar respublikada 64 min hektardan artıq sahədə əkin aparılıb. Sahələrin 32 min 721 hektarını taxıl əkini təşkil edib, zəmilərdən 103 min tondan çox məhsul yığılıb.

Qarğıdalı əkinlərinə də diqqət artırılıb, məhsulun vaxtında toplanması üçün tədbirlər görülüb və tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olunub. Ötən il 2150 hektar qarğıdalı sahəsindən 21 min tona yaxın məhsul tədarük edilib, hər hektarın orta məhsuldarlığı 96 sentner olub. Bostan-tərəvəz məhsullarına olan tələbat da nəzərə alınıb, muxtar respublika üzrə 6203 hektar sahədə tərəvəz, 2479 hektar sahədə bostan əkinləri həyata keçirilib, 102 hektar yeni meyvə bağı salınıb. Bundan başqa, 3470 hektar sahədə kartof, 52 hektar sahədə tütün əkini aparılıb ki, bu da bir il əvvəlki göstəricilərlə müqayisədə 7 və 16 faiz çoxdur.

Muxtar respublikada əkinçiliyin inkişafında başlıca amil olan toxumçuluq sahəsi də dövlət qayğısından kənarda qalmayıb, torpaq mülkiyyətçilərinin məhsuldar və yerli iqlim şəraitinə uyğun toxumlarla təminatı sahəsində ardıcıl tədbirlər görülüb. 2021-ci il iyulun 15-də "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsin yaradılması muxtar respublikada toxuma olan tələbatın yerli istehsal hesabına ödənilməsi və bu sahədə dövlət nəzarətinin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olub.

## Tərtərdə bugünədək 8707 hektarda dənlik və yaşıl yem üçün bitkilər əkilib

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, bugünədək 13 min 207 hektar sahədə payızlıq şum aparılıb, 8706,9 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib.

Səpinlərin 4676,7 hektarı buğda, 4276,2 hektarı dənlik üçün arpa, 154 hektarı yaşıl yem üçün xəsil arpadır. Bundan başqa, cari ilin məhsulu üçün 5 hektar sahədə baş soğan, 3,5 hektar sahədə sarımsaq, 884 hektar sahədə təzə yonca əkilib.

## Qəbələdə meyvə istehsalı 1965 tondan çox artıb

Ötən il Qəbələ rayonunun meyvə bağlarından 15 min 898,9 ton məhsul tədarük olunub. Meyvə istehsalı əvvəlki illə müqayisədə 1965,5 ton artıb.

Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib. Bildirilib ki, hazırda Qəbələ rayonunda meyvə bağlarının ümumi sahəsi 8 min 868,2 hektardır. Bu bağların 8 min 104,7 hektarı barverən yaşdadır. Ötən il rayon ərazisində 19 hektar sahədə yeni meyvə bağları salınıb.

Rayonda üzümçülüyün inkişafına da diqqət ildən-ilə artır. Ötən il rayonda 12,4 hektar sahədə yeni üzüm bağları salınaraq mövcud bağların ümumi sahəsi 433,4 hektara çatdırılıb. 2021-ci ildə rayonda talvar üzümü də daxil olmaqla, 2 min 284,4 ton üzüm istehsal olunub.

## Salyan pambıqçıları keçən il məhsuldarlığa görə yenə birinci oldular



Bütün işlər təməl, bünövrə üzərində ərsəyə gəlir. Özül möhkəm, etibarlı olanda insanın başladığı işə inamı artır, o, yeni hədəflərə, zirvələrə can atır. Salyanlılar da möhkəm təməl üzərində yaratdıqları ənənələrinə sadiq qalaraq artıq tarixə çevrilən 2021-ci ili üzüağ, alnıaçıq yola salmışlar.

Onu qeyd edək ki, keçən il iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatı üçün də asan olmayıb. Koronavirus pandemiyasına görə sərtləşdirilmiş rejim tətbiq edilən günlərdə bəzən səhər tezdən kəndli öz əkin sahəsinə, iş başına vaxtında çata bilməyib, qurulmuş polis postlarında yoxlamadan keçməli olub. Digər tərəfdən, suvarma suyunun qıtlığı, havaların həddindən artıq isti keçməsi məhsuldarlığa mənfi təsir göstərib. Bunlara baxmayaraq, torpaq mülkiyyətçiləri, fermerlər var qüvvələri ilə çalışıblar. İstəyiblər, ikinci Qarabağ müharibəsində qazanılan qələbəni mökəmləndirməkdə onların da payı olsun, şəhidlərimizin yoxluğu hiss edilməsin.

Salyanlılar bu ruhla çalışaraq ötən il rayon üzrə hər hektardan 39,9 sentner taxıl, 36,9 sentner pambıq götürməyə nail olmuşlar. Pambıqçıların qazandıqları uğurlar daha ürəkaçandır. Onlar artıq üçüncü ildir ki, ölkə birincisidirlər. Ümumi məhsulun, yəni 22 min 675 ton pambığın 85 faizə qədəri maşınlarla yığılmışdır. Qazanılan qələbədə qabaqcıl fermerlərin əməyi böyük olmuşdur.

Onlardan biri Şorsulu kəndində yaşayan fermer Alim Eyvazovdur. O, kiçik yaşlarından bibisi, Sosialist Əməyi Qəhrəmanı Bibinisə Eyvazovanın himayəsində böyüyüb. B. Eyvazova isə bütün ömrünü-gününü kolxoz təsərrüfatına bağlamışdı. İkinci Dünya müharibəsi zamanı bu kəndin kişiləri cəbhəyə gedəndə təsərrüfatın bütün ağırlığı Bibinisə və rəfiqələrinin öhdəsinə düşmüşdü. Bu qadınlar da kişi qeyrəti ilə gecəli-gündüzlü çalışaraq kişilərin də yerinə işləmişdilər. Taxıl, pambıq əkib-becərmiş, mal-qara saxlamışdılar.

Haqq söz yerdə qalmadığı kimi, halal zəhmət də heç vaxt hədər getmir. Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olduğu zaman dəfələrlə Salyan rayonuna səfərlər etmiş, təsərrüfatlarda olub əmək adamları ilə görüşmüş, söhbətlər aparmış, onların problemləri, həyat şəraitləri ilə maraqlanmışdır. Heydər Əliyev növbəti dəfə M.F.Axundov adına kolxozda olarkən Bibinisə ilə də söhbət edib, işi, həyatı ilə maraqlanıb. Bir müddət sonra bütün həyatını kolxoz təsərrüfatına həsr edən, ailə belə qurmayan B.Eyvazovaya Sosialist Əməyi Qəhrəmanı adı verilir, o, Azərbaycan SSR Ali Sovetinin deputatı seçilir. Bütün bunlar balaca Alimin yaddaşına əbədilik həkk olunur, onun kimi zəhmətkeş olmağa səy göstərir.

"Niyyətin hara, mənzilin də ora" deyib ulularımız. Kolxoz quruluşu dağılsa da, Alim ruhdan düşmür. İlk vaxtlar ailələrinə pay kimi düşən torpağı əkib-becərir. Zəhmətkeşliyi, işə ağıllı şəkildə yanaşması, hər şeyi ölçüb-biçməsi nəticəsində hər il yaxşı məhsul əldə edir. O, əlavə olaraq icarəyə torpaq sahələri götürür, texnikalar alır, əkinçiliklə məşğul olan fermer təsərrüfatı yaradır. Öhdəsində olan torpaqlarda meliorativ işlər həyata keçirir. Bu il taxıl əkdiyi sahəyə növbəti il pambıq əkir, yoncalıqlar qocalıb az məhsul verəndə yerinə arpa, buğda səpir.

Alim əsl mütəxəssis kimi torpağın dilini öyrənib. Yaşadığı Şorsulu kəndinin və Salyan rayonunun keçən il əldə etdiyi uğurda onun da xüsusi payı vardır. Əkdiyi pambıq sahəsinin hər hektarından 35, taxıl sahəsinin hər hektarından isə 40 sentner məhsul götürüb. Mülkiyyətçilərdən Telman Məmmədov, Zamiq Babayev, Muğbil Həsənov, Ələsgər Eyvazov və başqaları da hər hektardan 35-40 sentner pambıq toplamışlar.

Rayonda 22 min hektar yonca sahəsi vardır. Son illər heyvandarlığın inkişafı, demək olar ki, bu yem kütləsi ilə müəyyən edilir. Kifayət qədər yonca tədarük etmisənsə, deməli, yaxşı ət və süd əldə edəcəksən. Odur ki, sahibkarlar əvvəlki illərdən fərqli olaraq, suvarmadan qabaq yoncalıqlara mineral gübrələr verirlər. Belə olduqda bitki daha yaxşı inkişaf edərək daha çox yaşıl kütlə verir. Bu, eyni zamanda sahələrin mövsüm ərzində 4-5 dəfə biçilməsinə imkan yaradır.

Hazırda rayonda 63,3 min baş qaramal, 185 min baş davar bəslənir. "İnəyin südü ağzındadır" məsəlini unutmayan sahibkarlar bu qış günlərində ət və süd məhsulları istehsalını azaltmamaq, malqaranı qışdan sağlam və gümrah çıxarmaq üçün kifayət qədər şirəli və qaba yem tədarükü görmüşlər.

Taxılın qiyməti dünya bazarında ilbəil bahalaşır. Bunun nəticəsidir ki, bu günlər çörəyin qiymətində də artım yaranıb. Belə vəziyyət taxılçılar qarşısında yeni vəzifələr qoyur. İdxaldan asılılığı minimuma endirmək üçün hər bir fermer, mülkiyyətçi öz töhfəsini verməyə səy göstərməlidir. Cari ilin məhsulu üçün keçən ilin payızında Salyanda 16 min 113 hektar sahəyə taxıl əkilmişdir. Əkinlərin mühüm bir hissəsinə səpin zamanı toxumla birlikdə ammofos gübrəsi verilmiş, digər aqrotexniki tədbirlər həyata keçirilmişdir. Havaların quraqlıq keçməsini nəzərə alan mülkiyyətçilər əkinlərin çoxunu suvarmışlar. Nəticədə normal çıxış alınmışdır.

Bol məhsul üzağlığı, xoş əhvali-ruhiyyə, yaxşı gün-güzəran deməkdir. Hər il olduğu kimi, ötən il də kənd adamları əkib-becərdikləri, tədarük etdikləri məhsulun bəhrəsini gördülər. Alın təri ilə yetişdirdikləri kənd təsərrüfatı məhsullarını sataraq kimi oğul evləndirdi, kimi qız köçürdü, kimisi də ev tikdi, maşın aldı, digər əgər-əskiyini düzəltdi. Bu iş indi də davam edir.

Fermer, torpaq mülkiyyətçisi, sahibkar eyni zamanda bu gün yeni arzularla, qayğılarla yaşayır. Hara nə əkəcəyi haqda götür-qoy edir, çıxarını-gəlirini hesablayır. Pambıq yetişdirməyi qərara alanlar emal müəssisələri ilə müqavilə bağlayırlar. Yazda digər bitkilər əkənlər də keyfiyyətli toxum, gübrə tədarük edir, texnikanı saz vəziyyətə gətirirlər. Bir sözlə, qışın oğlan çağında belə kənd təsərrüfatı ilə məşğul olan adamlar üçün iş var.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Unun və çörəyin maksimum qiyməti müəyyənləşdi



Son dövr dünyada baş verən iqtisadi proseslərin və COVID-19 pandemiyasının təsirləri, 2021-ci il ərzində dünya bazarlarında ərzaqlıq buğdaya tələbin artması və buğda istehsalçısı olan ölkələrin daxili bazarı qorumaq məqsədilə həyata keçirdiyi müxtəlif proteksionist tədbirlər fonunda ərzaqlıq buğdanın qiyməti kəskin artmışdır.

Əlavə olaraq, ən böyük ərzaqlıq buğda istehsalçılarından biri və Azərbaycana ixrac edilən buğdanın əsas mənbə ölkəsi olan Rusiya Federasiyasının 2021-ci ilin fevral ayından yüksək ixrac rüsumları tətbiq etməsi səbəbindən ölkəmizə idxal olunan ərzaqlıq buğdanın qiymətində 2019-cu illə müqayisədə təxminən 58% bahalaşma baş vermişdir.

Vurğulamaq vacibdir ki, Azərbaycanda ərzaqlıq buğdanın, unun və çörəyin qiyməti tənzimlənən tariflər deyil, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşır. 2021-ci il ərzində ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədi ilə hökumət tərəfindən ayrılmış böyük həcmdə subsidiyalar hesabına buğda və unun qiymətlərinin real qiymətlərdən aşağı saxlanılması təmin olunmuşdur. Təbii olaraq, subsidiyalar hesabına bu qiymətlərin uzunmüddətli dövrdə liberal iqtisadi tələblərə zidd olaraq qeyri-real səviyyədə saxlanılması mümkün deyildir.

Nəticədə cari ilin əvvəlindən etibarən ərzaqlıq buğda tədarükü və un istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən unun qiyməti ərzaqlıq buğdanın hazırkı idxal qiymətinə uyğunlaşdırılmışdır. Satış bazarında qiymət manipulyasiyalarına yol verilməməsi məqsədilə preventiv tədbir olaraq, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bir sıra iri ərzaqlıq buğda idxalçıları, həmçinin un və çörək istehsalçıları ilə müzakirələr aparmış və prosesin nəzarətdə saxlanılması təmin edilmişdir. Belə ki, idxal qiymətləri və emal xərcləri nəzərə alınmaqla, hazırda bu məhsula real qiymət formalaşmış, un və çörək istehsalçıları ilə qiymətin maksimal yuxarı həddi müəyyənləşdirilmişdir: 50 kq-lıq bir kisə unun topdansatış qiyməti - 35,9 manat, 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 50 qəpik, 650 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 65 qəpik.

Dövlət Xidməti qiymət hədlərinə əməl olunması üzrə ciddi nəzarət tədbirlərini davam etdirir. İlk günlərin monitorinqlərinin nəticələrinə əsasən, unun topdansatış qiyməti 35,4-35,9 manat arasında dəyişir.

Hazırda Dövlət Xidməti un istehsalçılarının topdansatış mərkəzləri və məntəqələri, iş vaxtları və topdansatış qiymətlərinə dair mütəmadi şəkildə yenilənəcək məlumat bazası hazırlayır və bu gün ərzində ictimaiyyətə açıqlanacaqdır.

## 11 min başa yaxın qaramal haqqında məlumatlar elektron sistemə daxil edilib



Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) təşkilatçılığı, Dünya Bankının dəstəyi ilə heyvanların identifikasiyası və qeydiyyatı davam edir.

2021-ci il 15 dekabr - 2022-ci il 6 yanvar tarixlərdə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda ailə-kəndli və fermer təsərrüfatlarında 10775 sayda iribuynuzlu heyvan identikləşdirilərək həm təsərrüfatlar, həm də heyvanlar haqqında məlumatlar elektron sistemə daxil edilib. İdentikləşdirilən heyvanlardan 2352-si Bakı şəhəri, 8163-ü Abşeron rayonu və 260-ı isə Sumqayıt şəhərinin payına düşür.

Ölkəmizdə yaradılan Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sistemi (HİQS) heyvanların məruz qaldığı xəstəlikləri, profilaktik və müalicə tədbirləri, tətbiq edilən preparatları, diaqnostik sınaqları və onların nəticələri, heyvanın hərəkəti, həmçinin sahibləri və digər individual göstəriciləri barədə məlumatların unikal identifikasiya kodu ilə əlaqələndirilmiş qaydada toplanılaraq idarə olunmasını təmin edir. Tətbiq olunan preparatların orqanizmdən xaricolma müddətinin gözlənilməsi, alqı-satqısı, daşınması və kəsim dövründə heyvanlara nəzarət edilməsi, itmiş heyvanların axtarılması və ya tapılmış heyvanların sahibinin aşkar edilməsi və digər bu kimi proseslərin idarə olunması identifikasiya sisteminin əsas funksiyalarıdır. Bu sistem "fermadan süfrəyədək" prinsipinə uyğun olaraq heyvan mənşəli qida məhsullarının izlənilməsinə və təhlükəsizliyinə, insan sağlamlığının təmin olunmasına və yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınmasına öz töhfəsini verəcəkdir.

## Azərbaycanda qoyun və keçilərin güzəştli sığortası başlayıb

Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən yeni aqrar sığorta mexanizmi çərçivəsində sığortalanan kənd təsərrüfatı heyvanlarının siyahısı genişləndirilib.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, bundan sonra südlük inək və camışlarla yanaşı, ətlik mal-qara, eləcə də qoyun və keçiləri də sığortalamaq mümkün olacaq.

Yeniliyə əsasən, 11-ci gündən 5 yaşa qədər davar heyvanlar (qoyun və keçilər) sığorta ediləcək. Bu sığorta ilə həm xaricdən gətirilən cins, həm də yerli heyvanları sığortalamaq mümkündür.

Aqrar sığortanın əhatə etdiyi digər sahələrdə olduğu kimi, qoyun və keçilərin sığortası zamanı da fermerlər sığorta haqqının yalnız yarısını ödəyir, pulun qalan hissəsini fermerlərə dəstək üçün dövlət ödəyir.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, qaydalara əsasən, sığortalanan qoyun və keçilər peyvəndlənməli, birkalanmalı, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyata alınmalı, qapalı yerdə saxlanılmalı və saxlandığı yer Nazirlər Kabinetinin təsdiqlədiyi "Heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması Qaydaları"na uyğun olmalı, heyvanlara qarşı baytarlıq tədbirləri və onların qidalanması qaydalara uyğun təmin edilməlidir.

Aqrar sığorta vasitəsilə heyvanlar çoxsaylı risklərdən sığortalanır. Bura yoluxucu xəstəliklər, ilan və həşərat sancması, təbii fəlakətlər, zəhərli otlar və yemlərdən zəhərlənmə, kimyəvi maddələrin təsiri ilə zəhərlənmə, vəhşi heyvanların hücumu, təbii fəlakətlər və yanğın, heyvanın nəqliyyat vasitəsi - avtomobil və ya qatarla vurulması nəticəsində heyvanların ölümü, oğurluq, eləcə də heyvanların məcburi kəsimi aiddir.

Qeyd edək ki, təbii fəlakət dedikdə zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına və dolu, sel və ya subasma, leysan, ildırırm, şaxtavurma (donvurma) və normadan artıq yağan qar yağıntıları) nəticəsində heyvanın ölümü nəzərdə tutulur.

Aqrar sığorta çərçivəsində qoyun və keçilərin sığortalanması üçün sığorta tarifi 6,4-7,0% arasında dəyişir. Azadolma məbləğindən asılı olaraq sığorta tarifi dəyişir. Belə ki, azadolma məbləği 10% olduqda sığorta tarifi 7%, azadolma məbləği 20% təşkil etdikdə sığorta tarifi 6,4% təşkil edir. Nəticədə fermerlər cüzi ödəniş etməklə keçi və qoyunları sığortalaya bilərlər.

Dünya gündəmi

# «Delta», «Alfa», «Beta», «Qamma», «Omikron»...



## Ötən il 3,7 milyon insanın həyatına son qoyan COVID-in yeni mutasiyaları artmaqda davam edir

Əvvəli 1-ci səh.

Ötən il ortaya çıxan variantlardan bir neçəsi daha təhlükəli hesab edildi ki, onların arasında ilk dəfə Hindistanda müəyyən edilmiş "Delta" (B.1.617.2) hazırda bütün ölkələrdə ən çox yayılmış ştamıdır. Digər mutasiyalar - "Alfa" (B.1.1.7) ilk dəfə Böyük Britaniyada, "Beta" (B.1.351) ilk dəfə Cənubi Afrikada, "Qamma" (S.1) ilk dəfə Braziliyada aşkarlandı.

### "Omikron" kütləvi immunitetin yüksək olduğu ölkələrdə də sürətlə yayıldı

Ümumilikdə 2021-ci ilin ən dominant mutasiyası yaz aylarından Hindistandan yayılmağa başlayan "Delta" olsa da, noyabr ayının sonlarından ortaya çıxan "Omikron" çox qısa zaman ərzində yayılma arealını sürətlə genişləndirə bildi. Artıq 105-dən çox ölkədə rast gəlinən, yüksək yoluxuculuğuna görə özündən əvvəlki bütün mutasiyaları qabaqlayan "Omikron" hətta kütləvi immunitetin yüksək səviyyədə olduğu ölkələrdə belə "Delta" ştamından daha sürətlə yayılır. Yalnız Cənubi Afrikada deyil, Böyük Britaniyada xəstəxanaya yerləşdirilən "Omikron"lu xəstələrin sayının getdikcə artması bunu təsdiqləyən hallardan biridir.

Azərbaycanın rəsmi məlumatlarına görə, ölkəmizdə indiyədək "SARS-CoV-2" virusunun "Delta" və "Alfa" variantları aşkar olunub. "Omikron"a yoluxma isə heç bir rəsmi məlumatlarda öz əksini tapmayıb. Amma arxayınlaşmaq olmaz. Çünki Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adanom Gebreyesus ötən ilin sonunda keçirdiyi mətbuat konfransında "Omikron"un dünyada sunami təsiri yaradacağından böyük narahatlıq hissi keçirdiyini bildirib. O, yeni ştamın ciddi qəbul edilməməsinin ağır nəticələrə gətirib çıxara biləcəyi ilə bağlı dünya ictimaiyyətinə xəbərdarlıq edib.

### Yoluxanların sayı 300 milyona yaxınlaşır

İndiyədək koronavirusa dünyada 298 milyon nəfərdən çox insan yoluxub, 5,5 milyona yaxın insan isə bu virusdan dünyasını dəyişib. Onlardan 3,7 milyonu yalnız 2021-ci ilə aiddir. Alimlərin bundan sonra da COVID-in yeni mutasiyalarının ortaya çıxacağını istisna etməməsi o deməkdir ki, bu say hələ artacaq, pandemiya isə davam edəcək.

Pandemiyaya səbəb olan virusun mənşəyinin öyrənilməsindən ötrü 2021-ci ildə də ÜST tərəfindən elmi tədqiqat işləri davam etdirilib. Ötən ilin yanvarında ÜST-ün komandası bu məqsədlə pandemiyanın yaranma mərkəzi olan Çinin Uhan şəhərinə səfər etsə də, araşdırma nəticəsində hər hansı yeni məlumat toplanılmadı. Nümayəndə heyəti bildirib ki, virusun mənbəyi ilə bağlı müxtəlif ssenarilər var. Ən yüksək ehtimal virusun heyvandan - yarasalardan insanlara keçə biləcəyi ilə bağlıdır.

2020-ci ildə ölkələr pandemiya ilə bağlı davamlı olaraq daha sərt qapanmalara getsələr də, bu, 2021-ci ildə ardıcıl davam etmədi. COVID-ə yoluxma hallarının artması, o cümlədən "Omikron"un getdikcə yayılması ilə əlaqədar Yeni il bayramı ərəfəsində görülən sərt tədbirlər nəzərə alınmazsa, keçən il bu sahədə yumşalmalar daha çox hiss edildi. Bir çox dövlətlər müəyyən şərtlər daxilində öz sərhədlərini turistlərin və xarici qonaqların üzünə açdılar. Düzgün planlaşdırılmış tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanda keçən il pandemiya ilə bağlı vəziyyət nəzarət altında saxlanıldı və ölkəmizdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldıldı. Belə ki, daha sərt məhdudiyyətlərin qoyulmasına ehtiyac yaranmadı.

### Peyvəndlər və maskalar hələ də koronavirusa qarşı təsirli sayılır

Dünyada pandemiya ilə bağlı son iki ildəki vəziyyət COVID-in hər bir yeni variantının əvvəlkindən daha yoluxucu olduğunu göstərdi. Nəticədə insanlar hər dəfə daha sürətlə yayılan yeni bir dalğa ilə rastlaşmalı oldular. Bəs dəfələrlə mutasiyaya uğrayan bir virus üçün pandemiya başlayarkən elan edilən profilaktik qorunma vasitələri - peyvəndlər və tibbi maskalar hələ də təsirli sayılırmı? Bunun cavabı birmənalı olmasa da, mütəxəssislər, o cümlədən ÜST-ün nümayəndələri düşünürlər ki, neçə dəfə mutasiya etməsindən asılı olmayaraq, mövcud vaksinlər və tibbi maskalardan istifadə COVID-in bütün növlərinə qarşı hələ də təsirlidir. Buna görə koronavirusdan ölümün, xəstəliyin şiddətinin azaldılması məqsədilə peyvənd vurdurmaq, tibbi maskalardan istifadə etmək insanlara virusdan ən effektiv qorunma üsulu kimi tövsiyə edilir.

2021-ci ildə vaksinasiya sahəsində çox ciddi irəliləyişlərin əldə edilməsinə baxmayaraq, peyvəndləmə sahəsindəki qeyri-bərabərlik mübarizə işinin keyfiyyətinə əsaslı şəkildə təsir etməklə onun effektivliyini azaldır. Hazırda aşağı gəlirli ölkələrdə insanların yüzdə yeddisindən bir qədər çoxu peyvəndlərin bir dozasını alırsa, yüksək gəlirli ölkələrdə bu nisbət 75 faizdən çoxdur. Buna görə də insanların həyatlarını xilas etmək üçün effektiv və təhlükəsiz COVID-19 peyvəndlərinə geniş çıxışın olmasına ehtiyac var. ÜST-ün rəhbərlik etdiyi "COVAX" proqramı 2021-ci ilin sonuna qədər hər bir ölkə əhalisinin ən azı 20 faizinin peyvənd edilməsini nəzərdə tuturdu. Ancaq dünyanın əksər ölkələri bunu edə bilməyib. Vaksinləşdirmə sahəsindəki qeyri-bərabərliyi aradan qaldırmaqdan ötrü "SARS-CoV-2" vaksinlərinin siyahısını genişləndirən ÜST ötən ilin sonunda Amerikanın "Novavax" şirkətinin lisenziyası əsasında Hindistanın Serum İnstitutu tərəfindən istehsal edilən "Covovax" koronavirus peyvəndini təcili istifadə üçün təsdiqləyib. ÜST-ün qənaətincə, bu, aşağı gəlirli ölkələrdə daha çox insanı peyvənd etmək üçün göstərilən səylərə təkan verəcək.

Təşkilatın Baş direktoru Tedros Adanom Gebreyesus bu fikirdədir ki, peyvəndləmə səviyyəsinin yüksəldilməsi sayəsində dünya ictimaiyyəti COVID-19 pandemiyasına son qoya bilər. O, keçən ilin son günlərində keçirdiyi mətbuat konfransında bildirib ki, pandemiyanın bitməsi üçün 2022-ci ilin ortalarına qədər dünya əhalisinin 70 faizi COVID-19-a qarşı peyvənd olunmalıdır. Bu qlobal məqsədə çatmaq üçün bütün ölkələrin birlikdə çalışması vacibdir.

### Azərbaycan nümunəsi beynəlxalq səviyyədə dəyərləndirilib

Pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarı olan Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı narazılığını ifadə edib. Peyvəndlərə çıxışla əlaqədar dövlətlər arasında dərinləşən qeyri-bərabərliyin aradan qaldırılması üçün Azərbaycan ÜST-ə 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi edib ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardımdır. Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərib, təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə edib.

Azərbaycanın təkcə beynəlxalq arenada deyil, ölkə daxilində də son 3 il ərzində pandemiya ilə mübarizə sahəsində göstərdiyi müfəssəl səylər beynəlxalq səviyyədə də yüksək qiymətləndirilib.

Azərbaycan dünyada COVID-ə qarşı vaksinləşdirməyə başlayan ilk ölkə olaraq bu sahədə əhəmiyyətli addımlar atıb. Ölkədə 2021-ci il yanvarın 18-dən başlayan koronavirusa qarşı vaksinasiya dövlət hesabına aparılır. İlkin olaraq səhiyyə işçilərinə vurulmağa başlanılan COVID peyvəndlərindən mərhələli şəkildə digər əhali qrupları da yararlanıblar. Hazırda bu proses davam edir. 2021-ci ildə Azərbaycanda hətta ÜST-ün tövsiyəsinə uyğun olaraq, 16-18 yaşlı yeniyetmələrə könüllülük əsasında COVID-19 xəstəliyi əleyhinə mRNT Pfizer ("Comirnaty") peyvəndi vurulmağa başlanılıb. "Delta" variantının ortaya çıxmasından sonra Azərbaycanda üçüncü peyvənd dozası da vurulur.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*







# Avropada ən böyük qaz çatışmazlığı böhranı gözlənilir

## Ekspertlər problemin 2025-ci ilə qədər davam edə biləcəyini deyirlər

Analitiklər hesab edirlər ki, 2022-ci ilin mart ayının sonuna Avropada qaz ehtiyatlarının 15 faizə qədər azalması, böhranın 2025-ci ilə qədər uzanması ehtimalı mövcuddur.



Ehtiyatların az olması və soyuqların yaxınlaşması səbəbindən Avropa yaxın aylarda ən böyük qaz çatışmazlığı ilə üzləşə bilər. Bu barədə Qaz və Hidrogensaxlama Sistemlərinin Almaniya Operatorları Assosiasiyasının (INES) rəhbəri Sebastyan Bleşkeyə istinadən ABŞ-ın "Bloomberg" Maliyyə İnformasiyaları Agentliyi xəbər verir.

Bleşkenin dediyinə görə, Avropada yeraltı qaz anbarları 56 faiz dolub ki, bu da son 10 ilin orta göstəricindən 15 faiz aşağıdır.

"Wood Mackenzie" şirkətinin qaz tədqiqatları və təbii maye qazı üzrə vitse-prezidenti Massimo Di-Odoardo bildirir ki, əgər Rusiya ixracının artımının az ehtimal olunan dayandırılmasını istisna etsək, onda 2022-ci ilin mart ayının sonuna qədər normal hava şəraitində ehtiyatlar 15 faizə qədər azala bilər.

Agentlik qeyd edir ki, maliyyə-fond bazarındakı satıcılar - treyderlər artıq ən pis vəziyyətə hazırlaşırlar: yazdan 2023-cü ilə qədər tədarük edilən qazın qiyməti son ayda təxminən 40 faiz artıb.

"Bəziləri deyirlər ki, böhran 2025-ci ilə qədər davam edə bilər. Həmin vaxt ABŞ-da növbəti təbii maye qaz layihələri axınları dünya bazarına nəql olunmağa başlayacaq", - deyə məlumatda bildirilir.

Massimo Di-Odoardonun fikrincə, "2022-ci il Avropanın qaz qiymətləri üçün daha bir qeyri-sabitlik ili olacaq".

Bu arada Avropada qazın qiyməti min kubmetr üçün 1100 ABŞ dolları səviyyəsində saxlanılır.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

**Nəhayət ki, uzun fasilədən sonra həftəsonu teatr sevgimə qovuşdum. Səbirsizliklə tamaşanın keçirildiyi məkana tərəf sürətlə irəliləyirdim və o anlarda qeyri-ixtiyari pandemiyadan öncəki teatr xatirələrim yaddaşımda baş qaldırırdı...**

**Ən çox yadıma düşən isə hər dəfə tamaşanın bitməsi ilə bağlı keçirdiyim təəssüf hissi idi... Teatrdan aldığım mənəvi zövqün bitməsini heç istəmirdim...**

# Yolumuzu teatrdan sala biləcəyikmi...

## Nədən həyatı səhnədə yaşadan sənətə maraq bu qədər azalıb?

Bir də zalda mənimlə bərabər adda-budda oturmuş tamaşaçıları görür, tamaşa bitdikdən sonra çıxıb getməyə hazırlaşdığım ərəfədə isə gələn dəfə bütün yerlərin dolu olacağına, hətta bilet tapmaqda çətinlik çəkəcəyimə olan böyük ümidlərlə teatrla xüdahafizləşirdim. Axı teatr mədəniyyətinin parlaq şölələri bütün qəlblərə işıq saçmağa və hər kəsi özünə cəlb etməyə qadirdir.

*Teatrlarımız zamanla ayaqlaşmaqda çətinlik çəkir*

Dünyanı çənginə almış pandemiyanın hər an bizimlə birgə addımlaması hələ də davam edərkən bir çox sahələrdə qaydalarda yumşaldılmaların tətbiqi, o cümlədən teatrların yenidən fəaliyyətinin bərpası bütün teatrsevərlərin uzunsürən həsrətinə son qoymuşdu.

Xeyli fasilədən sonra mən də yenidən böyük sevinclə teatra üz tutdum. Tamaşa zalına daxil olanda sevincdən gözlərimə inanmadım, demək olar ki, bütün oturacaqlar dolu idi, tək-tük boş yer qalmışdı. Uşaqdan böyüyə hər kəs həyəcanla pərdələrin açılmasını, tamaşanın başlamasını gözləyirdi...

Lakin teatrlarda, həyatın səhnədə yaşandığı bu mədəniyyət məbədlərində bir-iki yerin belə boş qalması da tamaşaçı çatışmazlığı kimi qiymətləndirilməlidir. Həm də pandemiya səbəbindən uzun müddət evdə qapalı qalan şəxslərin teatrlara üz tutması reallığının fonunda, həyat normala dönəndə yenidən teatrlarımızın tamaşaçı kasadlığı çəkməyəcəyinə tam inam yoxdur.

Bəs teatrlarımızı tamaşaçı sevgisindən uzaq salan səbəblər hansılardır? Daha tamaşaçılar konsertlərə, tamaşalara getmək istəmirlər? Bu versiyanın üzərində durub günahı tamaşaçılarda o halda axtarardıq ki, ölkəmizə konsert üçün qonşu dövlətlərdən gələn sənətçilərin satışa çıxarılan biletlərinin 2-3 ay öncədən bitdiyi faktlarını bilməsəydik...

Bəlkə, tamaşaçılar səhnədə oynayan aktyor və aktrisalarımızın performanslarından narazıdır? Yaxud teatrlardan tamaşaçıların üz döndərməsinə rejissorlar, tamaşaçını cəlb edə bilməyən teatr nümayəndələri səbəb olurlar? Bütün bu suallara elə teatr mütəxəssisləri ilə cavab tapmağa çalışdıq.

Teatrşünas Elçin Cəfərov bildirir ki, teatrlara olan marağın azlığının dəqiq səbəbini müəyyənləşdirmək çətindir. Bu problemin həlli ilə teatr sosiologiyası məşğul olmalıdır. Azərbaycanda isə bu sahə, demək olar ki, inkişaf etməyib: "Ümumilikdə, ölkəmizdə insanların nəinki teatra, eləcə də digər incəsənət növlərinə marağı arzuolunan səviyyədə deyil. Obyektiv səbəb ondan ibarətdir ki, teatrlarımız, yumşaq desək, bir qədər zamanla ayaqlaşmaqda çətinlik çəkir. Teatrlarımızın repertuarında olan tamaşaların əksəriyyəti müasir cəmiyyəti narahat edən aktual problemləri səhnəyə gətirə bilmədiyi üçün belə məqamlarla üzləşirik".



Ekspert əlavə edir ki, digər səbəblərdən biri teatr sənəti sahəsində PR işlərinin qeyri-mütəşəkkil və pərakəndə şəkildə həyata keçirilməsi ilə bağlıdır. Teatrların əksəriyyətində PR işi ilə məşğul olan peşəkar kadrlar, şöbələr fəaliyyət göstərmir. Bu işi, bir qayda olaraq, ədəbi hissə müdiri, yaxud mətbuat katibi vəzifəsində çalışan insanlar həyata keçirirlər. Mütləqdir ki, kütləni cəlb etmək işinin uğurla həyata keçirilməsi üçün müəyyən qüvvə və vəsait ayrılsın.

Pantomim aktyoru, rejissor Pərviz Məmmədrzayev isə hesab edir ki, səhnə tamaşaçıya aşıladığı mövzu vasitəsilə maraqlı olmaqla bərabər, aktyorların müvəfəqiyyətli çıxışları ilə də fərqləndirici rəğbət qazanmalıdır. Aktyordan səhnədə səmimilik, həyatilik, insani hisslərin ən zərif şəkildə təqdimatı gözlənilir. Bunları özündə ehtiva edib canlandıra bilməyən aktyorlara inanmayan tamaşaçı da teatrdan əlini üzür. Digər bir məqam isə rejissorun tamaşanın müasir, maraqlı və cəzbedici şəkildə quruluşunu həyata keçirməsidir: "Əgər rejissor öz yaradıcılığında qurduğu tamaşaya yalnız "bu əsərə də quruluş verdim" deyib üzərindən keçmək fikri ilə yanaşacaqsa, o tamaşa uğurlu olmayacaq.

*Müasir müəlliflərin əsasən serial bazarına üz tutması teatrlara pyeslər təqdim edilməsini kölgədə qoyur*

Sadalanan problemlər bəlli olsa da, nəticənin əldə edilməsi üçün addımlar müntəzəm atılmalıdır. Adətən, problemlərə istiqamətlənərək onun həllinin əsas göz önündə tutulmalı olduğu unudulur. "Alternativ olmayan yerdə problem yoxdur", - deyən James Burnham da istənilən məsələnin həllinin mümkün olduğuna işarə edir.

Teatrlara daha geniş auditoriyanın cəlb edilməsi məqsədilə bir sıra layihələrin həyata keçirilməsi zəruridir. Ekspert Elçin Cəfərov qeyd edir ki, ölkəmizdə teatr sənətinə dair mətbuat orqanları, demək olar ki, yoxdur. "Teatro.az" istisna olmaqla ölkədə bu sahədə ixtisaslaşmış heç bir qəzet, jurnal, sayt fəaliyyət göstərmir, o cümlədən də televiziya proqramına rast gəlinmir. Bu fakt ölkədə teatr sahəsi ilə əlaqəli maarifləndirmə işlərinin aparılmasına mane olur. Teatrın təbliğini canlandırmaq üçün televiziyanın, o cümlədən son illər bütün dünyada ən vacib təbliğat maşınlarından birinə çevrilmiş sosial medianın imkanlarından maksimum yararlanmaq lazımdır.

Onun fikrincə, yeni teatr formalarının yaranması, tamaşaçı rəyinin öyrənilməsi və fəaliyyət zamanı bu rəylərin nəzərə alınması kütlənin marağını cəlb etmək baxımından faydalı ola bilər.

Pərviz Məmmədrzayev isə bu məsələlərin həllində dramaturgiyanın əhəmiyyətini ön plana çəkir. Hazırda bir çox müasir müəlliflərin əsasən serial bazarına üz tutması teatrlara pyeslər təqdim edilməsini kölgədə qoyur. Buna görə də teatrlar yeni əsərlərsiz qalır. Şübhəsiz ki, güclü pyeslər hazırlanıb tamaşaya qoyulduğu təqdirdə Azərbaycanın teatr sənəti də dünya teatr müstəvisinin standartlarına cavab verə bilər.

*Belə olarsa, bir müddət sonra yenidən teatrlarda tamaşaçı problemi yaşanacaq*

Pandemiyanın hökmünün bir çox sahələrin ona baş əyməsinə və çarəsizliyinə səbəb olduğu faktı daha çox rastlaşdığımız məqamlardandır. Bununla belə, qadağaların yumşaldılması ilə bəzi sahələrdə canlanmanın da şahidi oluruq. Bu sevindirici məqam teatrlarda da müşahidə olunur.

Araşdırmalar və müşahidələr göstərir ki, dünyanın COVID-19-la mübarizəsindən öncə Azərbaycanda teatrlara üz tutan tamaşaçıların sayı ilə karantin qaydalarının son yumşaldılmalarından sonra satılan biletlərin sayında müsbət istiqamətdə dəyişiklik var. Pərviz Məmmədrzayev bu halı insanların evə qapanmalardan sonra canlı ünsiyyətə daha çox ehtiyac duyması ilə izah edir. O bildirir ki, indi əgər teatr rəhbərləri, rejissorlar düzgün taktika və əsaslı üsullardan istifadə etsələr, bu vəziyyəti daimi müsbətə doğru dəyişə bilərlər. Əks halda bir müddət sonra yenidən pandemiyadan əvvəl olduğu kimi tamaşaçı problemi yaşanacaq.

Teatr sahəsindəki son dəyişiklikləri dirçəliş kimi ifadə edən Elçin Cəfərov teatrın cəmiyyətə lazım olduğu qənaətindədir. O, qeyd edir ki, əsasən imitasiya üzərində qurulan teatr sənətimiz hələ canlı hüceyrələrini itirməyib: "Yenicə yaranmış marağın itməsinə, teatrların yenidən inersiya vəziyyətinə qayıtmasına yol vermək olmaz. Məhz bu canlı prosesi qorumaq, stimullaşdırmaq lazımdır ki, teatr sənətini gərəksizlik sindromundan qurtara və inkişaf etdirə bilək. Pandemiya teatrların fəaliyyətinə fasilə versə də, düşünməyə, milli teatrı inkişaf etdirmək üçün yeni yollar axtarmağa imkan yaratdı. Təbii ki, bir-iki layihə ilə buna nail olmaq qeyri-mümkündür. Kompleks tədbirlər görülməli, yeri gəldikcə radikal addımlar atılmalıdır ki, Azərbaycan teatrının daha işıqlı sabahına şahidlik edə bilək".

Ekspert dəyərləndirmələrindən də məlum olur ki, teatrlarımıza tamaşaçı sevgisinin az olması tək bir nüansla, yaxud aktyor, rejissor, dramaturq və sair ilə bağlı deyil, ümumilikdə söylənənlərin hamısını və digər problemləri özündə ehtiva edir. Əgər sadalanan çatışmazlıqlar kompleks şəkildə həllini taparsa, tezliklə teatrlarımızda zallar tamaşaçılarla aşıb-daşar, tamaşalar anşlaqla keçər.

Və o da reallıqdır ki, tamaşanın uğuru könüllü alınan biletlə ölçülür...

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Ermənistanda əhalinin maaşları mənimsənilir

## İqtisadi tənəzzülün davam etməsi ilə birlikdə hakimiyyətin reytinqi də minimuma enir

Əvvəli 1-ci səh.

Bu arada Ermənistanda cari ilin ilk ayından etibarən inflyasiyaya görə əhalinin maaşlarından pul saxlanılır. Həmin vəsaitlər müxtəlif fondlara və dövlətin xeyriyə layihələri üçün nəzərdə tutulmuş büdcəsinə veriləcək. Dövlətin bir sıra qanunvericilik dəyişiklikləri səbəbindən ölkədə kəskin bahalaşma gözlənilir. Məcburi pensiyalar üçün maaşdan ödənilən aylıq məbləğ bu il əhəmiyyətli dərəcədə artacaq. Əgər yanvarın 1-dək 500 min drama qədər əməkhaqqı alanlar bunun 3,5 faizini icbari pensiyaya verirdilərsə, cari ilin yanvarın 1-dən bu, 4,5 faizə qədər artacaq. Bu, gəlir vergisinin 1 faiz azalması ilə qismən kompensasiya ediləcək.

Erməni iqtisadçılar problemin sabit gəlir vergisi ilə bağlı olduğunu qeyd edərək bildirirlər ki, bütün hallarda gəlirin məbləğindən asılı olmayaraq, vətəndaşlar eyni gəlir vergisini ödəyəcəkləri üçün ölkədə narazı təbəqə artacaq. Vurğulanır ki, hazırda Ermənistanda bu problem daha da kəskinləşib. Çünki yeni qaydalar ən həssas təbəqəyə, o cümlədən minimum istehlak səbətinə uyğun pensiya və müavinət ala bilməyən aztəminatlı işçilərə və ya təqaüdçülərə zərbə vuracaq. Bundan əlavə, Ermənistanda yanvarın 1-dən suyun, işığın və qazın qiymətləri daha da yüksələcək. İşığın tarifi orta hesabla təxminən 5,5 dram artacaq, qaz tarifinin də artacağı gözlənilir. Artımlar təkcə insanların gəlirlərinə deyil, həm də əlavə inflyasiyaya səbəb olan amillərə də təsir edəcək.

"4rd.am" saytı yazır ki, Ermənistanda cari ildə istehlakçılar üçün 200 kilovat-saata yaxın elektrik enerjisinin sutkalıq qiyməti 44,98 dramdan 46,48 dram, gecə tarifi isə 34,98 dramdan 36,48 drama yüksələcək. Sutkada 201-400 kilovat-saat elektrik enerjisinin qiyməti isə hazırkı 44,98 dram əvəzinə 48,48 dram, gecə tarifi isə 34,98 dram əvəzinə 38,48 dram olacaq. 400 kilovat-saatdan artıq istehlak üçün gündüz qiyməti 47,98 dram əvəzinə 53,48 dram, gecə isə 37,98 dram əvəzinə 43,48 dram təşkil edəcək.

Ermənistanda yanvarın 1-dən malların gömrük rüsumları da artırılıb. Belə ki, Ermənistanda idxal edilən quş əti üçün gömrük rüsumu 30 faiz, düyü və marqarin üçün 2 faiz, kartof və lobya toxumları üçün 1 faiz artıb. Qiymətli və yarımqiymətli daşlar və metallar üzrə tariflərdə qızıl üçün 3-6 faiz, gümüş üçün 5 faiz artım olub. Bu ildən etil spirti, alkoqollu içkilər, tütün və bir sıra digər məhsulların aksiz dərəcələri artırılacaq ki, bu da onların son qiymətlərinin artmasına səbəb olacaq.

Bütün bunlar onu göstərir ki, müharibədəki məğlubiyyətdən sonra Ermənistan hələ də özünə gələ bilmir. Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan bu ölkə sonu görünməyən tənəzzül dövrünü yaşayır. Əhalinin əvvəlki maaşla yaşaması isə mümkün deyil. Siyasi ziddiyyətlər paralel şəkildə digər sferalardakı mövcud problemləri dərinləşdirib. Ermənistanda iqtisadiyyat faktiki olaraq iflic olub, əhalinin səfaləti isə artıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bakı Ali Neft Məktəbinin tələbələri “NETTY-2021” mükafatına layiq görülüblər

Bakı Ali Neft Məktəbinin (BANM) tələbələrindən ibarət “Crocusoft” şirkətinin mobil komandası “NETTY-2021” Azərbaycan Milli İnternet Mükafatına layiq görülüb. Komandanın hazırladığı “Smart Customs” tətbiqi “İlin mobil tətbiqi” seçilərək “Dövlət və Cəmiyyət” nominasiyasında qalib olub.

Tələbələrin hazırladığı tətbiq 300 mindən çox yüklənmə sayı, 5 min rəy və 4.9 reytinqlə önə çıxıb. “Crocusoft” komandasının proqramçıları BANM-in müxtəlif ixtisaslarının tələbələri Mirkamal Qasımov, Aynur Əsədova, Elman Şükürov və Mirnicat Cabbarlıdır.




Qeyd edək ki,Azərbaycan Milli İnternet Mükafatında NETTY akademikləri 2021-ci ildə müsabiqədə iştirak edən milli veb-saytların, sosial səhifələrin və proqramlar arasında ən yaxşılarını seçiblər.Ekspert şurasının və virtual münsiflər heyətinin səsvermə nəticələrinə əsasən iştirakçı saytların siyahısından mükafatların nominantları olan veb-saytlar, proqramlar və İT layihələr seçilib.

Xatırladaq ki, 2004-cü ildə təsis edilən, 2005-ci ildən reallaşan NETTY Azərbaycan Milli İnternet Mükafatı - Ümumdünya Şəbəkəsinin milli seqmentinin və ümumiyyətlə, İT-bazarının inkişafı üçün yaradılmış informasiya texnologiyaları sahəsində Azərbaycanın birinci peşəkar mükafatıdır.

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləçəkdir.

LOT 1: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Dövlət proqramlarının müvafiq bəndlərinin həlli istiqaməti üzrə sorğu, təhlil və araşdırmaların aparılması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Azərbaycan Beynəlxalq Bank (“ASAN ödəniş” ilə Portal vasitəsilə ödəniş olunmalıdır)

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501**
**Funksional təsnifat-00113**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**

**İştirak haqqı-400 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə 31.01.2022-ci il saat 12:00-a kimi təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (2022-ci il üzrə);*
- *məhkumluq haqqında arayış (2022-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (2022-ci il üzrə);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini 31.01.2022-ci il tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini 08 fevral 2022-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09 fevral 2022-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləçəkdir.

LOT 1: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2022-ci il əlamətdar günlər üzrə fəaliyyət istiqamətindən irəli gələn məsələlər ilə əlaqədar tədbirlərin təşkili

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Azərbaycan Beynəlxalq Bank (“ASAN ödəniş” ilə Portal vasitəsilə ödəniş olunmalıdır)

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501**
**Funksional təsnifat-00113**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**

**İştirak haqqı-400 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə 31.01.2022-ci il saat 12:00-a kimi təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (2022-ci il üzrə);*
- *məhkumluq haqqında arayış (2022-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (2022-ci il üzrə);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini 31.01.2022-ci il tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini 08 fevral 2022-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09 fevral 2022-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

# “Məşğulluq marafonu”na 600-dən çox işəgötürən 4 000-dək vakansiya təqdim edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan “Məşğulluq marafonu”na bugünədək 602 işəgötürən (52,5%-i dövlət, 47,5%-i özəl) qoşularaq 3932 vakansiya təqdim edib.

“Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!” devizi altında keçirilən marafonun məqsədi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış şəxslərin məşğulluğuna dəstək verməkdir.

Marafona təqdim edilən vakansiyalar üzrə həmin kateqoriyalardan olan artıq 1433 nəfər (248 şəhid ailəsi üzvü və 1185 iştirakçı) işlə təmin olunub. Hazırda da vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

“Məşğulluq marafonu”na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.




## Qarabağ müharibəsi iştirakçısının pul vəsaitini aldatma yolu ilə ələ keçirmiş şəxslə bağlı cinayət işi məhkəməyə göndərilib

Qurbanov Əhliman Sultan oğlunun vətəndaşa qarşı qanunsuz hərəkətlər etməsi barədə daxil olmuş müraciət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işinin istintaqı yekunlaşdırılıb. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaqla Əhliman Qurbanovun 2018-ci ildə ona müraciət edən Birinci Qarabağ müharibəsi iştirakçısına özünün yüksək vəzifədə işləyən səlahiyyətli tanışı vasitəsilə əlillik dərəcəsinin alınmasına kömək göstərəcəyini yalandan vəd edərək 16 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə, həmin hərəkətləri ilə vətəndaşı vəzifəli şəxsə rüşvət verməyə təhrik etməsinə əsaslı şübhələr müəyyən olunub.

İş üzrə toplanmış sübutlar əsasında Əhliman Qurbanova 2021-ci il dekabrın 24-də Cinayət Məcəlləsinin 178.2.4-cü (xeyli miqdarda ziyan vurmaqla dələduzluq) və 32.4, 312.1-ci (rüşvət verməyə təhrikçilik) maddələri ilə yekun ittiham elan edilib. Cinayət işi baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləçəkdir.

LOT 1: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2022-ci il üzrə Dövlət proqramlarının müvafiq bəndlərinin və fəaliyyət istiqamətindən irəli gələn məsələlərin həlli üzrə işlərin icrası məqsədilə tədbirlərin təşkili

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla.

Azərbaycan Beynəlxalq Bank (“ASAN ödəniş” ilə Portal vasitəsilə ödəniş olunmalıdır)

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501**
**Funksional təsnifat-00113**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**

**İştirak haqqı-500 manat**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə 31.01.2022-ci il saat 12:00-a kimi təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (2022-ci il üzrə);*
- *məhkumluq haqqında arayış (2022-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (2022-ci il üzrə);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini 31.01.2022-ci il tarixə kimi və tender təklifi ilə bank təminatı sənədlərini 08 fevral 2022-ci il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 09 fevral 2022-ci il saat 12:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Səfa Mirzəyev “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baba Rzayev və “Azərenerji” ASC-nin kollektivi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Fikrət Şirinova anası

**NƏSİBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin professor-müəllim heyəti “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov və nazirliyin Kollegiya üzvləri “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Fikrət Şirinova anası

**NƏSİBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR ŞƏMŞİR OĞLU QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu və kollektivi iş yoldaşları Fərəh Qəhrəmanlıya anası

**TAMARA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4339
Sifariş 2
Qiyməti 40 qəpik